Xalqın qəzeti!

# Xalq qəzeti

№ 229 (30345) 20 oktyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası bölgələrimizin simasını dəyişdirmişdir. Proqramların məqsədi məhz ondan ibarətdir ki, bütün mövcud problemlər, insanları narahat edən sosial məsələlər öz həllini tapsın. Şəhərlərimizi qurmuşuq, özümüz üçün gözəl həyat yaratmışıq. Gələcəkdə daha da böyük işlər görüləcək.

# Regional inkişafda tarixi dönüş



**Son 20 ildə ölkəmizdə regionların inkişafı daim diqqətdə saxlanılıb. Bununla bağlı qəbul edilən dövlət proqramlarının (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) uğulu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərin siması köklü şəkildə dəyişilib, bölgələrin potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açılıb. Eyni zamanda, respublikada qeyri-neft sektorunun inkişafına, yeni müəssisələrin, iş yerlərinin yaradılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılması və yoxsulluq səviyyəsinin azaldılmasına nail olunub.**

Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, ***son 20 il ərzində regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar 4 dövlət proqramında nəzərdə tutulan tədbirlərin gerçəkləşdirilməsi üçün yatırılan investisiyaların həcmi 104 milyard manata yüksəlib. Bunun nəticəsidir ki, 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə çoxalıb, 2004-cü ildən indiyədək bölgələrdə 1,8 milyondan çox yeni iş yeri və 52 mindən çox yeni müəssisə yaradılıb.***

2003-cü ildən regionlarda 8 hava limanı tikilib və ya yenidən qurulub, Laçın hava limanının inşasına başlanılıb. Bundan başqa 17 min kilometrdən çox avtomobil yolu salınıb, 500-dən çox körpü və tunel, 3 min 300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 Olimpiya İdman Kompleksi istifadəyə verilib, yaxud təmir olunub.

***Regionlarda özəl sektorun dəstəklənməsinə böyük önəm verilib. Bu sahədə Sahibkarlığın İnkişafı Fondu xüsusi fərqlənib. Belə ki, 2003-2022-ci illərdə fond tərəfindən 43 minədək investisiya layihəsinin maliyyələşməsinə 28 milyard manatdan çox güzəştli kredit verilib və onun 75 faizi regionlara ayrılıb. Bu layihələr hesabına 80 faizdən çoxu regionların payına düşməklə 178 mindən çox yeni iş yeri açılıb.***

*(ardı 7-ci səhifədə)*

# Azərbaycanın heç kimin torpağında gözü yoxdur!

## *Fransa səfiri növbəti dəfə sayıqlayır*

**Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsi Ermənistanın əsas havadarı olan Fransa rəsmilərinin əsəblərini tarıma çəkib. Fransanın təsirinin güclü olduğu bəzi Avropa dövlətlərinin, institutlarının ölkəmizə son vaxtlar artan hücumları da rəsmi Parisdən qaynaqlanır.**



Doğrudur, Prezident İlham Əliyevin hücum diplomatiyası sayəsində onların bütün təşəbbüsləri, o cümlədən BMT Təhlükəsizlik Şurasında Azərbaycanla bağlı qətnamə qəbul etmək səyləri iflasa uğrayır. Yeri gəlmişkən, oktyabrın 17-də Avropa Parlamentində danışan Ermənistan baş naziri Nikol Paşinyan BMT Təhlükəsizlik Şurasında Qarabağla bağlı üç iclasın keçirildiyini xatırladaraq, həmin müzakirələrin heç bir praktiki nəticə vermədiyini etiraf edib. Buna baxmayaraq, fransızlar hər halda bölgədə sülhün əldə olunmamasına, gərgin vəziyyətin davam etməsinə öz "töhfələrini" verirlər.

*(ardı 8-ci səhifədə)*

# İşğal və qətllər təsdiqlənir




**Kriminalistikada cinayətin törədilməsi motivinin və şəraitinin araşdırılması zamanı təhqiqatçıların qarşılaşdığı maraqlı bir hal var. Xüsusilə insan həyatına sui-qəsd, ölüm faktı ilə bağlı işlərdə bu məqam müstəntiqlər tərəfindən mütləq nəzərə alınır. Mütəxəssislərin gəldiyi qənaətə görə, hadisələrin doxsan faizində qatil tez, ya gec cinayəti törətdiyi məkana qayıdır. Bununla da "özünüifşa" baş verir və ağır cinayətin üstü açılır.**

Avropa İnsan Hüquqları Məhkəməsi "Oqanesyan və Karapetyan Ermənistana qarşı" işi üzrə qətnaməsini elan edib. İş üzrə iddiaçı qismində Ermənistan vətəndaşları Mikael Oqanesyan və Svetlana Karapetyan çıxış edirdilər. Onların oğulları R.Oqanesyan və A.Sarkisyan Qarabağda hərbi xidmətlərini keçdikləri zaman öldürülüblər. Əsgərlərin hər ikisi orduya 2008 və 2009-cu illərdə Ermənistandan çağırılmış və hərbi xidmətlərini keçmək üçün "Dağlıq Qarabağ Respublikası"nda (AİHM-nin qətnaməsində keçmiş separatçı qurumun adı dırnaq işarəsi ilə verilib – red.) yerləşən hərbi hissəyə göndəriliblər.

*(ardı 4-cü səhifədə)*

# Avantürizm tələsi – Qərbin "bəyanat məntiqi" və "Qarabağ erməniləri" ilə manipulyasiya

**Avropa Şurasının Nazirlər Komitəsi və Avropa İttifaqının nümayəndə heyəti oktyabrın 18-də Strasburqda keçirilən iclasda Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı bəyanat qəbul edib. Bəri başdan bildirək ki, bəyanatda ölkəmizə qarşı mənfi yöndə köklənmə motivləri var. Sanki Bakı demarş edən, despot tərəfdir, İrəvan isə məzlum. Əlbəttə, belə yanaşma qəbuledilməzdir, ikili standartlardan xəbər verir. Yazımızda bu yanaşmanın ayrı-ayrı təzahür formalarını diqqətə çatdıracağıq.**



Başlayaq ondan ki, bəyanatda Avropa İttifaqının Azərbaycanın bu il 19 və 20 sentyabr tarixlərində keçirdiyi antiterror tədbirlərindən sonra Qarabağ ermənilərinin guya kütləvi surətdə köçürülməsi və Laçın dəhlizinin doqquz aylıq blokadası nəticəsində yaranmış "son dərəcə çətin vəziyyəti" narahatlıqla izlədiyi bildirilir. Həmçinin əlavə edilir ki, Qarabağın, demək olar ki, bütün əhalisi – 100,6 min nəfərdən çoxu Ermənistanda sığınacaq tapıb.

Bəli, Avropanın müxtəlif strukturlarında bu cür yaramaz münasibətə köklənmiş bəyanatların, açıqlamaların sayı artmaqdadır. Belə dəst-xəttin Ermənistanın ənənəvi anti-Azərbaycan ritorikasının tərkib hissəsi olduğu aşkardır. Sanki kimlərsə qarşılarına məqsəd qoyublar ki, ölkəmizin səsi eşidilməsin. Məsələn, bilinməsin ki, Bakı heç bir halda Qarabağ ermənilərinin ərazidən çıxmalarını istəməyib, dəfələrlə reinteqrasiya çağırışları edərək özünün xoş niyyətini ortaya qoyub. Haqqında söz açdığımız bəyanat da əsl həqiqətlərdən uzaqlaşmaq ruhundadır və sənədin qərəzini təsdiqləyən başlıca göstərici elə budur. Ancaq digər məqamlar da var.

*(ardı 3-cü səhifədə)*

# Yaxın Şərq: Qəzza atəş altında



**Yaxın Şərqdə eskalasiyanın azalacağı ilə bağlı ümidlər, təəssüf ki, özünü də doğrultmur. 7 oktyabr hücumundan hiddətlənən İsrail Silahlı Qüvvələri HƏMAS yaraqlılarının kökünü kəsəcəyini, qarşı tərəf isə sonadək mücadilə aparacağını iddia edir. Böyük dövlətlərin vasitəçilik səyləri də bəhrəsiz qalıb.**

*(ardı 11-ci səhifədə)*

# Anti-Rusiya "barıtı" və Avropa Parlamentindəki "Paşinyan çəlləyi"

Səhifə ⇨ 3

# Müharibə mövzusu böyük ekranda

**Azərbaycan kinematoqrafiyasında müharibə mövzusunda xeyli gözəl film var. İkinci Dünya müharibəsinə aid olan "Uzaq sahillərdə", "Sizi dünyalar qədər sevirdim", "Şərikli çörək", "Bizim Cəbiş müəllim", "Mən ki gözəl deyildim", "Bizim küçə", "Ölsəm, bağışla", "Tütək səsi" filmləri mükəmməldir. Bu ekran işlərində həm döyüş səhnələri göstərilib, qəhrəmanlıq tərənnüm olunub, həm də topsuz-tüfəngsiz arxa cəbhədəki insan taleləri əsas götürülərək savaşın faciələrinə işıq tutulub.**

*(ardı 10-cu səhifədə)*



# Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına

**Hörmətli qurultay nümayəndələri!**
**Əziz xanımlar!**

Sizi Azərbaycan qadınlarının VI qurultayının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Qurultayın Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Ümummilli Lider qadınlarımızın ictimai-siyasi proseslərdə yaxından iştirak etmələrinə və dövlət qurumlarında geniş təmsil olunmalarına həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başlatmışdır. Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir.

Qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar, eyni zamanda, maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.

Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır.

Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatının milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 oktyabr 2023-cü il**

# 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh" Sərgisinin iştirakçılarına

**Hörmətli Sərgi iştirakçıları!**
**Hörmətli xanımlar və cənablar!**

Sizi 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh" Sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Ötən illərin təcrübəsi göstərir ki, belə sərgilərin təşkili işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpası, regional sülh və davamlı inkişaf məqsədinin reallaşması baxımından faydalı olmuşdur. Şübhəsiz ki, bugünkü Sərgi də gələcək biznes layihələrinin gerçəkləşdirilməsi üçün mühüm fürsətlər yaradacaqdır.

Bu Sərgi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin keçirildiyi dövrə təsadüf edir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin ərazi bütövlüyünün təmin edilməsində və müstəqil inkişafında onun misilsiz xidmətləri vardır.

Ümummilli Lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Ulu Öndər həmin ərazilərin iqtisadi-mədəni inkişafı və həyat səviyyəsinin davamlı yaxşılaşması naminə xüsusi səy göstərmişdir.

Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Həmin ərazilərdə uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir.

Sərgi iştirakçılarını – qabaqcıl iş adamlarını işğaldan azad edilmiş doğma torpaqların bərpası və inkişafı üçün dövlətimiz tərəfindən yaradılmış imkanlardan faydalanmağa, habelə biznes ideyalarını vahid məqsəd ətrafında birləşdirməyə dəvət edirəm.

Əminəm ki, "Rebuild Karabakh" Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələr qurulması baxımından əlverişli platforma olacaqdır.

Bir daha bütün Sərgi iştirakçılarına və ziyarətçilərə işlərində müvəffəqiyyətlər arzulayıram!

Qarabağ Azərbaycandır!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 oktyabr 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Sizi ölkənin və onun hər bir vətəndaşının həyatında mühüm bayramlardan biri olan Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik edirəm.

Siz Azərbaycanın inkişafı, onun iqtisadiyyatı, təhsili, sosial həyatı üçün çox işlər görürsünüz. Xüsusilə, ölkənizin elmdə, o cümlədən tibb sahəsində əldə etdiyi inkişafı vurğulamaq istəyirəm.

Rusiya Səhiyyə Nazirliyinin Seçenov Universiteti ilə Azərbaycanı möhkəm və çoxillik əməkdaşlıq münasibətləri bağlayır.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı respublikanın səhiyyə sektoru üçün gələcək mütəxəssislər hazırlayır və oradakı tədris səviyyəsi dünya standartlarına cavab verir.

Əminəm ki, tibb, təhsil və elm kimi mühüm sahələrdəki əməkdaşlığımız xalqlarımızın mənafeyi naminə bundan sonra daha fəal şəkildə inkişaf edəcək.

Səmimi-qəlbdən Sizə və bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzu edirəm.

**Dərin hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

***

**Hörmətli cənab Prezident!**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 18 oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı olaraq Zati-aliniz tərəfindən uğurla davam etdirilir. Sizin müəyyənləşdirdiyiniz uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan siyasi, iqtisadi, sosial və mədəni sahələrdə böyük tərəqqi və inkişafa nail olmuşdur.

Zati-alinizin rəhbərliyi ilə dövlət müstəqilliyinin bərpasının qeyd olunduğu bu il Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bu gün Azərbaycanın üçrəngli Dövlət Bayrağı ölkənin bütün şəhər və rayonlarında qürurla dalğalanır.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimə ünvanladığınız təbrik məktubu bizi daha da ruhlandırmış və ortaq türk mirasının qorunması, təbliği ilə bağlı gerçəkləşdirəcəyimiz irimiqyaslı layihələrdə Azərbaycanın gələcəkdə də TÜRKSOY-a geniş dəstək verəcəyinə əminliyimizi artırmışdır.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

# Əli Əsədov Türkiyə nazirini qəbul edib

**Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaşla görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Ə.Əsədov Azərbaycanda sosial sahədə aparılan ardıcıl islahatlar, əhalinin rifah halının və sosial təminatının yaxşılaşdırılması, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən davamlı tədbirlər barədə məlumat verib. Bununla yanaşı, əhalinin dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun artırılması prioritet istiqamətlər kimi dəyərləndirilib.

Türkiyəli nazirin Bakıda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Azərbaycan Qadınlarının 6-cı Qurultayında iştirakının əhəmiyyəti vurğulanıb.

Diqqətə çatdırılıb ki, 25 il əvvəl Ulu öndərin təşəbbüsü və iştirakı ilə keçirilən Azərbaycan Qadınlarının 1-ci Qurultayı müasir dövrdə ölkəmizdə qadın hərəkatının əsasını qoymuşdur.

Vurğulanıb ki, hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk dövlət olmuşdur. Azərbaycan dövlətinin bu gün qadın hüquqlarının təmin olunmasına xüsusi önəm verdiyi bildirilib. Ölkədə gender bərabərliyinin, qadınların sosial və ictimai həyatın bütün sahələrində bərabər iştirakının təmin edilməsinə yönəlmiş siyasətin aparıldığı qeyd olunub.

Eyni zamanda, Azərbaycanda uşaq hüquqlarının təmin olunmasının da diqqət mərkəzində olduğu diqqətə çatdırılıb. Ölkəmizdə uşaqların müdafiəsi üçün kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin bir istiqaməti də uşaq əməyinin istismarına qarşı mübarizəyə yönəlib. Ötən dövrdə ölkəmiz BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası da daxil olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulub.

Həmçinin Azərbaycan ilə Türkiyə arasında ailə, qadın və uşaq problemləri sahəsində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğu vurğulanıb. Bu baxımdan ötən ilin noyabr ayında İstanbulda Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə Fəaliyyət Planının imzalanmasının önəmi qeyd olundu, ötən dövr ərzində Fəaliyyət Planının icrası çərçivəsində görülən işlər təqdir edilib.

Həmçinin dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi arasında imzalanmış 2024-2025-ci illər üzrə Fəaliyyət Planının əhəmiyyətinə toxunulub.

Görüş zamanı iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

***XQ***

# Kamran Əliyevin çinli həmkarı ilə görüşü



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pekində işgüzar səfərdədir. Oktyabrın 19-da Çinin Baş prokuroru Yinq Yonq ilə ikitərəfli görüş keçirilib.**

Nümayəndə heyətini səmimi salamlayan Yinq Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıb. Baş prokuror vəzifəsinə təyin olunması ilə əlaqədar təbrik məktubuna görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edib.

Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu öndər Heydər Əliyevin, müasir zamanımızda isə Prezident İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyi vurğulanıb.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Yinq Yonq həmkarını növbəti ilin aprel ayında Makaoda keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasına, Kamran Əliyev isə həmkarını 2024-cü ilin sentyabr ayında ölkəmizdə keçiriləcək ümumdünya prokurorlarının illik konfransına işgüzar səfərə dəvət edib.

***XQ***

# Avropa Fransaya müstəmləkəçiliklə bağlı təzyiq göstərmir

**Fransa əlindən gələni edir ki, Avropa ölkələri müstəmləkə məsələsindən uzaq qalsın, marağında olmasın.**



Bu barədə Qvadelupanın azadlığı naminə xalq birliyinin nümayəndəsi Yakop Bisep mətbuat konfransı zamanı deyib.

O qeyd edib ki, Fransa Avropa İttifaqında müstəmləkə tərəfdarı lobbilərin səsinin eşidilməsinə çalışır.

"Avropa Fransaya müstəmləkəçiliyə son qoymaqla bağlı heç bir təzyiq göstərmir. Aİ-də olan üzv dövlətlərin bəziləri də müstəmləkə dövləti olublar", – deyə o bildirib.

Qeyd edək ki, Bakıda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Neo-kolonizalizm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" adlı beynəlxalq konfrans keçiriləcək.

Bakı Təşəbbüs Qrupu (BTQ) Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb.

BTQ XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

***XQ***

# QAİ Frankofoniya Təşkilatının qərəzli mövqeyini pisləyib

**Ermənistan və Fransa Beynəlxalq Frankofoniya Təşkilatını (BFT) qatı anti-Azərbaycan platformasına çevirmək cəhdlərini davam etdirir. Bu xüsusda, BFT-nin baş katibinin İrəvanda verdiyi son açıqlamalar narahatlıq doğurur. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada bildirilib.**

Qeyd olunub ki, Qarabağda erməni mədəni irsinin qorunmasının vacibliyini qabardan baş katibin Ermənistanda Azərbaycan xalqına mənsub olan mədəni irsin acınacaqlı vəziyyətinə toxunmaması açıq-aşkar qərəz və ikili standartların təzahürüdür.

Qərbi Azərbaycan İcması BFT-nin baş katibini Ermənistanın və Fransanın Azərbaycana qarşı çirkin fəaliyyətində alətə çevrilməməyə və Azərbaycanla bağlı açıqlamalarında ehtiyatlı və məsuliyyətli olmağa çağırır.

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

***XQ***

# Avantürizm tələsi – Qərbin “bəyanat məntiqi” və “Qarabağ ermeniləri” ilə manipulyasiya

## Yaxud Avropanın anti-Azərbaycan oyunu və “pendir bəxşişi”

(əvvəli 1-ci səhifədə)

Avropa Şurası Nazirlər Komitəsinin və Avropa İttifaqının nümayəndə heyətinin bəyanatında bildirilib ki, Qarabağda qalanlara və gedənlərə davamlı olaraq maneəsiz humanitar dəstəyin göstərilməsi son dərəcə vacibdir. Keçən həftə Avropa Komissiyası 2020-ci ildən bəri verilmiş 20,8 milyon avroya əlavə olaraq 10,45 milyon avro dəyərində humanitar yardım paketi elan etdi. Burada başlıca məsələ “maneəsiz” sözünün işlədilməsidir. Yəni, elə bu sözdən aydındır ki, məsələni Azərbaycan üzərinə öhdəlik kimi qoymaq məramı var. Yeri gəlmişkən, məramın dəqiq ifadəsi özünü çox gözlətmir.

Məsələn, “Azərbaycan Qarabağ ermənilərinin insan hüquqlarını, əsas azadlıqlarını və təhlükəsizliyini, o cümlədən onların öz evlərində ləyaqətlə, heç bir qorxu və ayrı-seçkilik olmadan yaşamaq hüququnu təmin etməli, könüllü, təhlükəsiz, ləyaqətli və davamlı qayıdışı üçün şərait yaratmalıdır, qaçqın və köçkünlərin tarixlərinə, mədəniyyətlərinə və hüquqlarına hörmət edilməlidir. Bundan əlavə, yerli əhalinin mədəni irsi və mülkiyyət hüquqları effektiv şəkildə qorunmalı və təmin edilməlidir”.

Sual oluna bilər: Qarabağ erməniləri özləri tərəfindən Azərbaycana qarşı hansısa ləyaqətsiz hərəkət gördülərmi ki, getmək qərarına gəldilər? Xeyr! Elə isə başa düşmək olmur ki, Azərbaycan necə bir şərait yaratmalıdır? Bəlkə Xankəndidəki, Ağdərədəki, Xocalıdakı və digər yerlərdəki uçuq-sökük, heyvan damına oxşar evlərini tikib onların ixtiyarlarına təslim etməlidir ki, yenidən bölgəyə qayıtsınlar? Bəlkə separatçıların basdırdıqları minaların təmizlənməsini nəzərdə tuturlar?.. Onsuz Azərbaycan dövləti işğaldan azad edilmiş bütün bölgələrdə böyük quruculuq işləri gerçəkləşdirməkdədir. Antiterror tədbirlərindən sonra nəzarətinə keçən bölgələrdə də bunu reallaşdıracaqdır. Ölkəmizin reinteqrasiya təşəbbüsü ona hesablanıb ki, Qarabağ erməniləri prosesə fəal surətdə qoşulsunlar. Bununla həm də bir vətəndaş kimi üzərilərinə düşəni gerçəkləşdirsinlər, etimad qazansınlar. Etimad qazanmalı olan onlardır, azərbaycanlılar yox.

Əlbəttə, Azərbaycanın reinteqrasiya təşəbbüsünə dəstək həm də Qarabağ ermənilərinin həyat şəraitlərinin yaxşılaşması deməkdir. Hər halda, görülən işin qarşılığı ödənilməlidir və ödənilməsi nəzərdə tutulurdu da. Ancaq gördüyümüz kimi, ölkəmizin xoş niyyətinə məhəl qoyulmadı və cəmi üç gün ərzində bölgə erməniləri, sanki əvvəlcədən planlaşdırılıbmış kimi, ərazini tam boşaltdılar. İndi, necə deyərlər, hazıra nazir olmaq istəyirlər? Çox güman, avropalılar elə düşünürlər ki, Bakı onlar üçün komfortlu yaşam vəd etməlidir. Axı, belə yaşam üçün zəhmət çəkilməlidir. Qalıb zəhmət çəkəydilər, unutmayaydılar ki, havayı pendir yalnız tələdə olur. Daha doğrusu, azərbaycanlılarla birgə prosesdə iştirak edəydilər. Etmədilər və nəticə etibarilə erməni avantürizminin alətinə çevrilmək yolu tutdular. Yəni, havayı pendir yemək istədilər. Bu gün Ermənistanda azadlıqda yox, əslində, avantürizmin tələsindədirlər. Əminliklə deyə bilərik ki, yedikləri pendir-çörəkdən başqa heç nə olmayacaq...

***

Bəli, Avropa Şurasının Nazirlər Komitəsinin və Avropa İttifaqı nümayəndə heyətinin bəyanatı da, əslində, Qarabağdakı erməni avantürizminin davamına xidmət məramına söykənmiş kağız parçasıdır. Sənədin ana xəttini təşkil edən bu xidmətdir. Azərbaycandan tələb edilir ki, Qarabağ ermənilərinə hansısa fövqəladə yanaşma tətbiq edilsin, onlar üçün hüquq və azadlıqlar müəyyənləşsin. Başqa sözlə desək, ayrıca imtiyazlı təbəqə statusuna malik olmaları nəzərdə tutulur. Sən demə, bu, təhlükəsizliyin təminatı baxımından vacib imiş. Bəs, Azərbaycanın konstitusion əsasda verdiyi təminatlar? Görəsən, avropalılar bunu nəzərə alırlarmı? Axı konstitusion təminatlar haqqında söz açdığımız bəyanatın istinad etdiyi Avropa İnsan Hüquqları Konvensiyası üzrə nəzərdə tutulmuş öhdəliklərdən qaynaqlanır. Həmin ödəliklərdə yaşamaq hüququ da var, işgəncədən, qeyri-insani və ya ləyaqəti alçaldan rəftardan



və ya cəzadan imtina da. Bunu təkrar xatırlatmağa nə ehtiyac var? Qətiyyən yoxdur! Məlumdur ki, xatırlatma əlahiddə baxış formalaşdırmaq məqsədi daşımaqdadır.

Bəyanatda bildirilir ki, Prezident İlham Əliyevin Qarabağ erməniləri ilə sülh şəraitində yaşamağa, onların hüquqlarını qorumağa hazır olması barədə ictimaiyyətə açıqlamaları diqqətə alınır. Yaxşı ki, heç olmasa, bu məqam vurğulanır. Amma, ardınca bildirilir ki, Qarabağın erməni əhalisinin taleyi üçün birmənalı olaraq, Azərbaycan əsas məsuliyyəti daşıyır, dövlət maddi, konkret və şəffaf təminatlar yaratmalıdır. Ən əsası isə guya, mühüm etimad quruculuğu tədbiri kimi, Qarabağ erməniləri, o cümlədən onların nümayəndələri üçün hərtərəfli amnistiya elan olunmalıdır.

Burada da vurğulanmalı bəzi cəhətlər var. Əlbəttə, yuxarıda dediklərimizi təkrarlamağa lüzum görmürük. Sadəcə suallar verək: Kimə amnistiya şamil edilməlidir? Müharibə cinayətləri törətmiş şəxslərəmi? Bəlkə Gəncəni raket atəşinə tutmaq əmrini verdiyini açıqca bildirərək əməlindən qürur hissi keçirmiş, onlarla dinc azərbaycanlının ölümünə səbəb olmuş separatçı Arayik Arutyunyanamı, yoxsa qətliamlar, insanlıq əleyhinə cinayətlər törətmiş Bako Saakyanamı, Arkadi Qukasyanamı? Hansına? Bəlkə, Rusiyadan gələrək Qarabağda separatçılığı qızışdıran, min bir oyunlara baş vuran Ruben Vardanyanamı amnistiya tətbiq edək? Avropalıların yanaşması budur? “Sərt ritorikadan çəkinməyi gözləyirik” –deyərkən, cinayətin cəzasız qalmasınımı nəzərdə tuturlar?

Sən demə, Qarabağa beynəlxalq çıxış ehtiyac duyulan yardımın göstərilməsi və yerlərdə vəziyyətin müstəqil monitorinqinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edirmiş. Və sən demə, Avropa İttifaqı BMT-nin Baş katibinin miqrasiya və qaçqınlar üzrə xüsusi nümayəndəsinin kütləvi köçlə mübarizədə Ermənistan hakimiyyətinə dəstək və yardım göstərilməsi işini yüksək qiymətləndirirmiş, eyni zamanda, Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi faktaraşdırıcı missiyasını və onun sonrakı tövsiyələrini səbirsizliklə gözləyirmiş. Deyəsən, demək istəyirlər ki, Azərbaycan da mövcud istiqamətdə nə isə etsin. Ölkəmizin nə isə etməsinə gəlincə, məlumdur ki, bununla bağlı Aİ Şurasının Prezidenti Şarl Mişelin fikirləri var. Cənab Mişelin sözlərindən belə çıxıb ki, Bakı Qarabağ ermənilərinin bölgəyə qayıdışına razıdırsa, onların təhlükəsizliyinə və hüquqlarının qorunmasına təminat verməlidir. Təminat isə BMT sülhməramlılarının Qarabağa buraxılması olmalı imiş. Görəsən, başqa nəsə istəmirlər ki? Könüllərindən ayrı nələri keçirirlər?

Deməli, Rusiya sülhməramlıları çıxacaq, yerinə BMT sülhməramlıları Qarabağa gələcək. Hər halda, başqa məntiq duyulmur. Nəticədə isə Qarabağ erməniləri yenə də əvvəllər, yəni separatçıların dövründə olduğu kimi, xüsusi imtiyazlı təbəqə statusuna qalxacaqlar. Belə olan halda Azərbaycanın suverenliyi hara gedəcək? Əlbəttə, mövcud məqam avropalıları qətiyyən maraqlandırmır. Onlar üçün əsas olan incik düşmüş erməniləri nəyin bahasına olursa-olsun, razı salmaqdır.

***

Bütün diqqətə çatdırdıqlarımızdan sonra bəyanatda bölgə üçün davamlı sülh zəngulələri vurulur. Sülhə nail olmaq budurmu? Sülhə nail olmağın yolu Azərbaycanı hədəf alan bəyanatların, qətnamələrin və başqa bu sayaq heç bir əhəmiyyəti olmayan sənədlərin, lakmus kağızlarının qəbulu deyil. Ermənistanı və dünya erməniliyini hansısa formada razı salmağa, erməni avantürizmi üçün necəsə qol-qanad verməyə hesablandığı aşkar görünən hərəkətlər heç bir halda sülh təşəbbüsü kimi qiymətləndirilə bilməz.

Sülh səmimi şəkildə dərk edilməlidir. Sülhün bir tərəfi Azərbaycandırsa, digəri Ermənistandır. Bu gün İrəvan bütün platformalarda anti-Azərbaycan davranışı ortaya qoyursa, deməli, onun 1991-ci il Alma-Ata Bəyannaməsini və digər hansısa sənədləri qəbul etdiyini bildirməsinin heç bir mənası yoxdur. Bir halda ki, Ermənistan baş naziri Nikol Paşinyan Avropa Parlamentinə çıxışa dəvət edilir, ondan Nelson Mandella düzəldilirsə, Paşinyan isə ağzını açıb gözünü yumaraq Azərbaycan əleyhinə hədyanlar yağdırırsa, ölkəmizi az qala işğalçılıqda günahlandırırsa, deməli, ortada böyük spekulyasiya cəhdləri var. Hazırkı durumda Avropanın demokratiklik adına iddialı institutlarının işi səmimiyyətsizliyə sentimentallıq donu geyindirməkdir. Şübhəsiz, əməlləri də özləri kimi saxtadır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Anti-Rusiya “barıtı” və Avropa Parlamentindəki “Paşinyan çəlləyi”

## Bu gedişlə Nikolu, deyəsən, “ildırım vuracaq”

**Baş nazir Nikol Paşinyanın Avropa Parlamentindəki çıxışı həm Ermənistan daxilində, həm də xaricdə müxtəlif reaksiyalar doğurub. Hökumət tərəfdarları və Avropa rəsmiləri Paşinyanın Avropa ilə yaxın münasibətlər qurmaq istəyindən danışmasını və Rusiyaya qarşı üstüörtülü tənqidini məmnuniyyətlə qarşılayıblar. Digərləri isə Nikolun söylədiklərini onsuz da təhlükəsizlik problemləri ilə üzləşən ölkə üçün əlavə təhlükə kimi qiymətləndiriblər. Bundan əlavə, Moskvada adı çəkilməyən yüksək rütbəli mənbə baş nazirin dediklərini “tamamilə məsuliyyətsiz və təxribatçı” fikirlər adlandırıb.**

Əlbəttə, N.Paşinyanın Avropa Parlamentində oktyabrın 17-dəki çıxışı özlüyündə əlamətdardır. O anlamda ki, Nikol Avropanın qanunverici orqanının tribunasından çıxış etmək üçün dəvət olunan ilk erməni liderdir. Amma unutmaq olmaz ki, bu, Ermənistan–Rusiya münasibətlərinin pisləşməsi, eyni zamanda, birincinin özü üçün təhlükəsizlik problemlərini kəskinləşdirməsi fonunda baş verən hadisədir.

Əvvəllər rəsmi İrəvan dəfələrlə Moskvanın mövqeyindən narazılığını bildirib. Çünki Ermənistan hakimiyyətinin qeyd etdiyi kimi, Rusiya Azərbaycanla qarşıdurmada ona hərbi-siyasi dəstək göstərməyib. Son vaxtlar isə bu ziddiyyətlər Ermənistanın Rusiya hökumətinin yüksək rütbəli nümayəndələrinin həbsinə order vermiş Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasını tanımasından – Roma statutunun ratifikasiyasından sonra daha da dərinləşib.

Doğrudur, Avropa Parlamentində çıxış edən N.Paşinyan Ermənistanın Qərbyönümlü ictimai-siyasi dairələrinin gözləntilərinin əksinə olaraq, ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxa biləcəyi ilə bağlı heç nə demədi. O, bundan əvvəl də ölkənin İctimai televiziyasına müsahibəsində əmin etmişdi ki, İrəvan özünün xarici siyasət vektorunu dəyişmək yolu ilə getmir. Ancaq yuxarıda da vurğuladığımız kimi, baş nazirin 40 dəqiqəlik nitqində konkret vurğular var idi. O vurğular ki, onları Moskvada anti-Rusiya və təxribat xarakterli fikirlər kimi qəbul ediblər. Görünür, Nikol Avropanın gözləntilərini yalnız bu formada doğrulda bilir. Yəni, yarımçıq şəkildə.

***

Bəli, N.Paşinyan Avropa Parlamentinin Strasburqda keçirilən iclasında Qarabağın erməni əhalisinin bölgədən çıxması fonunda Rusiya sülhməramlılarını fəaliyyətsizlikdə ittiham edib. Halbuki Moskva dəfələrlə bildirib ki, Rusiya sülhməramlı kontingenti üzərinə düşən vəzifələri aydın şəkildə yerinə yetirib. Bunu Prezident Vladimir Putin də son günlərdəki çıxışlarında bir neçə dəfə vurğulayıb. O, xüsusən “Valday” Diskussiya Klubunun iclasındakı nitqində məsələyə çox geniş yer ayıraraq deyib ki, Qarabağdakı rus sülhməramlılarının missiyası qarşı tərəflər arasında atəşkəs rejiminin saxlanılmasına nəzarət olub. Rusiyanın dövlət başçısının fikrindən gəlinən qənaət isə budur ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla qarşı duran tərəflərdən biri olmaq istəməyib. Buna görə İrəvanın Moskvadan incik düşməyə əsası yoxdur.

Digər bir məqam da var. Nikolun üstüörtülü ittihamlarında Ermənistanın təhlükəsizlik üzrə müttəfiqlərinin Qarabağ ətrafındakı vəziyyət fonunda “açıq şəkildə ölkədə hakimiyyətin dəyişdirilməsinə çağırıblar” motivi də yer alıb. Heç şübhəsiz, o, Rusiyanı nəzərdə tutub və bunu dana bilməz. Çünki başqa müttəfiq yoxdur. Moskvada mövcud məqam kifayət qədər aydın dərk edilməkdədir.

Bəli, əvvəldə də bildirdiyimiz kimi, Rusiyada erməni baş nazirin üstüörtülü tənqidini cavabsız qoymamağı zəruri hesab ediblər. Lakin məsələyə birbaşa deyil, anonim “yüksək rütbəli mənbə”nin dili ilə cavab veriblər. Diqqət yetirək, mənbə Paşinyanın çıxışını “tamamilə məsuliyyətsiz və təxribatçı” formada qiymətləndirdiyini TASS-a deyib. Hər halda TASS-ın Rusiyada nə demək olduğunu bilməyənlər olmaz. Bu agentlik ölkənin dövlət mediasıdır və orada səslənmiş fikrin çəkisinin mövcudluğu şübhəsizdir. Yeri gəlmişkən, mənbə onu da bildirib ki, Paşinyan Ukrayna Prezidenti Volodimir Zelenskinin izi ilə fəal şəkildə getməkdədir: “Biz Moldovanı 2 nömrəli Ukrayna hesab etsək, Ermənistanı 3 nömrəli Ukraynaya çevirməyə çalışdıqlarını görürük. Paşinyan isə Zelenskinin yolu ilə sıçrayış edir”.

Görünür, Paşinyanın komandasında da baş nazirin çıxışında, necə deyərlər, barıtı çox etdiyini düşünürlər. Amma ortaya tamamilə qeyri-ciddi durum çıxır. Qeyri-ciddilik baxımından isə Ermənistanın xarici işlər nazirinin müavini Paruyr Hovannisyanın söylədikləri diqqət çəkməkdədir. Onun sözlərinə görə, Nikol çıxışında heç bir ölkənin adını çəkməyib, müttəfiqlərin davranışından məyusluğunun olduğunu deyib, hansı müttəfiqləri nəzərdə tutduğunu qeyd etməyib. Yəni, Hovannisyan Paşinyanın uşaq oyununa haqq qazandırır. Əslində, buna haqq qazandırmaq mümkün deyil.

***

Erməni politoloq David Arutyunov Ermənistan hakimiyyətinin öz xarici siyasətini Qərbə yönəltmək istəyinə əmindir. Politoloq deyib ki, eyni zamanda, Qərb və Rusiya ilə münasibətlərin



müvafiq şəkildə yenidən qurulması üzrə real sistemli iş aparılmır və ya bu iş məhdud miqyasda aparılır. “İrəvanın hərəkətləri anti-Rusiya ritorikasında cəmlənib və bunun müqabilində erməni tərəfi Qərbdən dəstək alacağını gözləyir. İndiyədək yalnız xarici siyasət sferasında Qərblə təmasların intensivləşdirilməsi və Rusiya istiqamətində fəaliyyətin əhəmiyyətli hissəsinin dondurulması, eləcə də təhlükəsizlik sahəsində aktiv axtarış formasında real addımlar müşahidə olunub”, – deyən Arutyunov Ermənistanın Rusiyaya alternativ silah tədarükçüləri axtarmasını da münasibətlərin kəskinləşdirilməsi baxımından mühüm cəhət kimi vurğulayıb.

Digər erməni politoloq Beniamin Poqosyan Ermənistan hökumətindən hazırkı xarici siyasət kursunu dəyişmək üçün aydın siqnallar görmədiyi qənaətindədir. Onun sözlərinə görə, rəsmi İrəvanın hansı məqsədləri güddüyü aydın deyil. Çünki hakimiyyət daxilində strukturlaşdırılmış qərar qəbuletmə mexanizmi yoxdur. “Ermənistanın baş nazirinin qərarlarını necə əsaslandırdığı aydın deyil. Onun kimə və nə vəd etdiyi qeyri-müəyyəndir”, – deyən Poqosyan, eyni zamanda, belə düşünür ki, Ermənistan Rusiyadan uzaqlaşmaq üçün hələ də simvolik addımlar atır. Məsələn, Paşinyanın həyat yoldaşı Anna Akopyan Kiyevə səfər edir, ölkənin Rusiyanın hakim rol oynadığı təşkilatlarda üzvlüyü faktiki olaraq dondurulub və sair: “Lakin Ermənistanın KTMT-dən, Avrasiya İqtisadi İttifaqından çıxması prosesinin başlaması və ya İrəvanla Moskva arasında böyük dostluq və qarşılıqlı yardım müqaviləsinin ləğvi kimi real addımlar yoxdur. Bu baxımdan, Nikolun hakimiyyətdə qalmaq naminə Qərbdən daha çox dəstək almaq üçün imitasiya ilə məşğul olduğunu, yoxsa, doğrudan da, Rusiyadan real məsafə saxlamağa getdiyini söyləmək çətindir”.

***

Qeyd edək ki, N.Paşinyan Avropa Parlamentindəki çıxışında Ermənistanı Cənubi Qafqazda demokratiya qalası kimi göstərdi. Sanki elə təəssürat yarandı ki, ölkə diktaturanın təzyiqləri ilə üz-üzədir və əgər təhdidlər güclənsə, demokratiya məhv olacaq. Əlbəttə, Nikolun belə ritorika ilə hansı hədəfləri nişan aldığı məlum idi. Onun çıxışında adını çəkdiyi ölkə Azərbaycandır. Nikol Bakını işğalçı kimi göstərdi. Bu, öz yerində. Yəni, bildirdi ki, Azərbaycanın guya ekspansionist hərəkətləri Ermənistan daxilində onun hakimiyyətinə qarşı çıxanları hərəkətə gətirməkdədir.

Əlbəttə, Nikolun söylədiklərində sırf ölkəmizə yönəlik gizli motiv də var. Paşinyan Avropanın bəzi dairələrinin ənənəvi anti-Azərbaycan ritorikasına siyasi sərmayə yatırmaqla məşğuldur. Məlum olduğu kimi, həmin ritorikanın tərkibində, guya, Azərbaycanda insan hüquq və azadlıqlarına etinasız münasibətin olduğuna dair yanaşmalar var. Erməni baş nazir diktaturanın təzyiqi deyimində məhz bu motivə də köklənmiş oldu. Başqa sözlə desək, Avropanı qıcıqlandırmaq yolunu tutdu.

Bir qədər əvvəl fikirlərini diqqətə çatdırdığımız Beniamin Poqosyan da təxminən mövcud məqamın üzərində dayanır. Ancaq bir qədər fərqli. O deyir ki, Nikol özünü böyük demokrat kimi qələmə verməklə, hər kəlməsinin əvvəlinə və axırına demokratiya yarlığı yapışdırmaqla, əslində, Qərbin Ermənistanda gedən anti-demokratik proseslərə göz yummasına çalışır. Başqa sözlə desək, hakimiyyətini qorumaq üçün əlavə immunitet axtarır. Baş nazir Avropa Parlamentinin tribunasından da məhz həmin məqsədi reallaşdırmaq naminə bəhrələndi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İşğal və qətllər təsdiqlənir

## Avropa İnsan Hüquqları üzrə Məhkəməsi Ermənistan hərbçilərinin Qarabağda törətdiyi cinayətlərdə İrəvanı təqsirləndirir

(əvvəli 1-ci səhifədə)

2010-cu il iyulun 28-də R.Oqanesyan və A.Sarkisyan, eləcə də, daha dörd hərbi qulluqçu odlu silahdan açılan atəşlə öldürülmüş vəziyyətdə tapılıb. İddiaçıların ərizələrində göstərdiklərinə görə, onların övladları hərbi nizamnamədən kənar münasibətlərin qurbanı olublar, onlar döyülməyə, işgəncəyə məruz qaldıqdan sonra güllələniblər. Öldürülmüş əsgərlərin valideynləri hesab edirlər ki, Ermənistan hakimiyyəti ölüm hadisəsində günahkar olanların, o cümlədən vəzifə borclarını yerinə yetirməyə səhlənkar yanaşmış yüksək rütbəli komandirlərin müəyyən olunması və cəzalandırılması üçün effektiv təhqiqat aparmayıb.

Bütün bunları nəzərə alan AİHM iddiaçıların insan hüquq və azadlıqlarına dair Avropa Konvensiyasının 2-ci maddəsi (yaşamaq hüququ) üzrə hüquqlarının pozulduğunu təsbitləyib. Strasburq məhkəməsi Ermənistan hökumətinin boynuna iddiaçıların hər birinə təzminat olaraq 30 min avro ödənilməsi öhdəliyinin qoyulması barədə qətnamə çıxarıb.

* * *

Məqsədimiz AİHM-nin çıxardığı qərarın nə dərəcədə ədalətli olub-olmadığını araşdırmaq deyil. Bizim üçün məsələnin ən önəmli tərəfi beynəlxalq məhkəmənin hökmünün altından boylanan çox vacib bir həqiqətin həmin yüksək instansiyada öz təsdiqini tapmasıdır. Yəni, İrəvanın Qarabağda Ermənistan ordusunun mövcudluğunu, vətəndaşlarının Azərbaycan ərazisində hərbi xidmət keçmələrini hər vəchlə inkar etməyə çalışması özünün faktoloji-məntiqi cavabını aldı. İndi daha bir danılmaz reallıq ortaya çıxır ki, Ermənistan ordusunun sayı on minə yaxın göstərilən Qarabağdakı tör-töküntüsündən başqa, hər il bölgəyə minimum üç-dörd min çağırışçı da göndərilirmiş. Bunun sübutu 2020-cu ildə Qarabağda özününkülər tərəfindən öldürülən neçə-neçə oqanesyanlar, sarkisyanlardır. Özününfüsa göz qabağındadır.





Tanınmış hüquqşünas, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Muxtar Mustafayev hesab edir ki, əslində, AİHM-nin bu qətnaməsi beynəlxalq məhkəmə instansiyası tərəfindən Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı faktının daha bir təsdiqi kimi olduqca böyük əhəmiyyət kəsb edir. M.Mustafayev bununla bağlı "Turan" informasiya agentliyinə verdiyi açıqlamasında bir məsələni xüsusi olaraq vurğulayıb: "AİHM-nin qəbul etdiyi qətnamədə Ermənistanın öz vətəndaşlarını hərbi xidməti keçməyə işğal altında saxladığı Azərbaycan ərazisinə göndərdiyi faktı təsdiqlənir. Bundan başqa, Strasburq məhkəməsi, eyni zamanda, Ermənistanı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisində törədilmiş cinayətlərə görə məsuliyyət daşıdığını da etiraf etmiş olur".

Ekspert sözlərinə onu da əlavə edib ki, AİHM-nin qətnaməsində məhkəmənin digər bir qərarına istinad yer alıb: "Bu, "Çıraqov və başqaları Ermənistana qarşı" adlandırılan işdir. Həmin iş üzrə qəbul edilən qətnamədə Laçın rayonundan bir qrup şəxsin doğma yurdlarından qovulmasına və əmlakdan məhrum olmasına görə Ermənistanın məsuliyyət daşıdığı öz əksini tapıb".

AİHM-nin məlum qətnaməsi özlüyündə bütün ərazisi üzərində suveren hüququnu bərpa etmiş Azərbaycanın ünvanına hələ də ittihamlarla çıxış edənlərə verilən ən tutarlı cavabdır.

* * *

Ermənistanın həm işğal dövründə, həm Vətən müharibəsində, həm də postmüharibə dönəmində torpaqlarımızda törətdiyi cinayətlərin araşdırılması məqsədilə monitorinqlər aparılır.

"Son illərdə baş verən müharibə və terror aktları fundamental insan hüquqlarının pozulmasına, humanitar böhranın yaranmasına səbəb olub". Bu sözləri **Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva** "İnsan hüquqları müdafiəsinin problemləri: ombudsmanların səlahiyyətlərinə dair müsbət təcrübələrinin bölüşülməsi" mövzusunda VII beynəlxalq elmi-praktiki konfransda çıxışında bildirib. Ombudsman konfrans iştirakçılarına otuz ilə yaxın müddət ərzində Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi müharibə cinayətləri barədə geniş məlumat verib.

Səbinə Əliyeva Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasi faktlarını özündə əks etdirən müraciət, hesabat və bəyanatların aidiyyəti beynəlxalq təşkilatlara və insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qurumlara ünvanlandığını qeyd edib.

Müharibələrin insan tələfatı ilə yanaşı, həm də onların itkin düşmələrinə səbəb olduğunu söyləyən müvəkkil Birinci Qarabağ müharibəsində 4 000-ə yaxın azərbaycanlının itkin düşdüyünü, onların taleyi barədə Ermənistan tərəfindən hələ də məlumat verilmədiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistanın törətdiyi mina terroru barədə danışan S.Əliyeva mina partlayışı nəticəsində İkinci Qarabağ müharibəsindən indiyədək yüzlərlə şəxsin mina qurbanına çevrildiyini qeyd edib.

Dünyanın 47 ölkəsindən ombudsmanların iştirak etdiyi elmi-praktiki konfransda "Müharibə və postmüharibə dövründə Azərbaycan Ombudsmanının fəaliyyəti" mövzusunda çıxışı zamanı müvəkkil insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində ombudsman təsisatlarının və milli insan hüquqları institutlarının rolunu vurğulayıb.



Azərbaycanın ombudsman təsisatının müvafiq istiqamətdə fəaliyyəti barədə ətraflı məlumat verən Səbinə Əliyeva İkinci Qarabağ müharibəsi nəticəsində beynəlxalq hüququn tələblərinə uyğun olaraq torpaqlarımızın işğaldan azad edildiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu diqqətə çatdırıb.

* * *

Azərbaycanla əlaqədar daxil olan müraciət və iddialara baxılarkən heç də həmişə ədalətli mövqedən çıxış etməyən, bir çox hallarda ikili standartlara üstünlük verən AİHM bu son qətnaməsi ilə, necə deyərlər, kələfin onsuz da görünən ucunu özü açmış oldu.

Məlumat üçün onu da bildirək ki, AİHM bir müddət əvvəl sülh və insanlıq əleyhinə cinayətləri törətməkdə təqsirləndirilən, hazırda Bakıda məhkəməsi davam edən Vaqif Xaçatryanla bağlı Ermənistanın müraciətini rədd edib. Bunu Avropa İnsan Hüquqları üzrə Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov bildirib. Onun sözlərinə görə, bu, son bir ayda İrəvanın rədd edilmiş dördüncü müraciətidir.

Bu, hələ başlanğıcdır. Ermənistandan, Suriyadan, Livandan, Fransadan, eləcə də dünyanın digər yerlərindən Qarabağa göndərilən və ya gətirilən musdluların soydaşlarımıza qarşı törətdikləri cinayətlərin üstünün açılacağı günə az qalıb. Şovinist hayların törətdikləri bütün cinayətləri sübuta yetiriləcək, baiskarlar layiq olduqları cəzalarını alacaqlar.

*İmran BƏDİRXANLI*

**XQ**

# Kəmaləddin Heydərovun Bişkek görüşləri



**Bişkekdə Beynəlxalq Mülki Müdafiə Təşkilatının İcraiyyə Şurasının 56-cı sessiyası öz işinə başlayıb. Tədbirdə ölkəmizi fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.**

Sessiyada qurumun İcraiyyə Şurasının prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilərin keçirilməsi, gələn il üçün büdcə layihəsi ilə bağlı müzakirələrin aparılması nəzərdə tutulur.

Sessiya çərçivəsində nazir Kəmaləddin Heydərov Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri Akılbek Japarov ilə görüşüb.

Görüş zamanı nazir Azərbaycanda fövqəladə hallarla mübarizə və mülki müdafiə sahəsində görülən işlərdən danışıb. K.Heydərov iki ölkənin fövqəladə halların idarə edilməsinə məsul qurumları arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin əhəmiyyətinə toxunub.

Qırğızıstanın Nazirlər Kabinetinin sədri Akılbek Japarov iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişafından məmnunluq ifadə edib, uyğun qurumlar arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu diqqətə çatdırıb.

Bundan əlavə, sessiya çərçivəsində fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Qırğız Respublikasının fövqəladə hallar naziri Boobek Ajikeev arasında ikitərəfli görüş keçirilib.

Görüşdə fövqəladə halların idarə edilməsi sahəsində mövcud əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Kəmaləddin Heydərov Rusiyanın mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması naziri general-leytenant Aleksandr Kurenkovla da görüşüb.

Görüşdə iki nazirlik arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, əlaqələrin daha da genişləndirilməsinin qarşılıqlı faydası qeyd olunub və digər məsələlər geniş müzakirə edilib.

Sessiya çərçivəsində nazir Kəmaləddin Heydərov Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi xanım Mariatu Yapla da görüşüb.

**XQ**

# Zakir Həsənov Özbəkistanda



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistanın müdafiə naziri general-leytenant Baxodir Kurbanovun dəvəti ilə bu ölkəyə rəsmi səfər edib.**

Azərbaycanın müdafiə naziri oktyabrın 19-da "Buxara" ümumqoşun poliqonuna gəlib.

Rəsmi qarşılanma mərasimi keçirilib.

Sonra müdafiə nazirləri arasında əvvəlcə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, hər iki ölkənin mütəxəssislərindən ibarət heyətin mütəmadi olaraq qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra poliqonun fəaliyyəti, maddi və tədris bazası ilə tanışlıq olub. Burada qonaqlara hərbi qulluqçuların nümunəvi məşğələləri nümayiş etdirilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

**XQ**

# Türkiyə parlament nümayəndə heyəti Şuşada

**Türkiyə Böyük Millət Məclisinin Baş katibi Talip Uzunun rəhbərlik etdiyi parlament nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində dünən Şuşa şəhərində olub.**




Qonaqlar Saatlı və Yuxarı Gövhər Ağa məscidlərində, Cıdır düzündə olub, Şuşanın Qala divarlarını seyr ediblər. Cıdır düzündə qonaqlara məlumat verilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları və qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

TBMM-in nümayəndə heyəti, həmçinin Şuşada Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş rəsm sergisi ilə tanış olub.

# Ermənilər hava məkanında da "tələlər" qururdular

**DTX mətbuat xidməti bildirir ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ölkənin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə və xarici aviaşirkətlərə məxsus mülki hava gəmilərinin naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq edilmişdir. Bu barədə dəfələrlə beynəlxalq ictimaiyyətə məlumat verilmişdir.**

2021–2023-cü illər ərzində belə radiomaneələrin tətbiqinin intensivləşməsi həmin ərazilərin yaxınlığında yerləşən radar stansiyalarına qlobal naviqasiya peyk sistemlərindən siqnalların daxil olmasında fasilələrin yaranması, siqnalların qəbuluna maneələrin törədilməsi, habelə Qarabağ bölgəsi ətrafında uçan mülki hava gəmilərində naviqasiya siqnallarının itməsi ilə müşayiət olunmuş və bununla da mülki təyyarələrin idarə edilməsinin müvəqqəti itirilməsinə və aviasiya qəzalarına səbəb ola biləcək çoxsaylı cinayət faktları qeydə alınmışdır.

Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işinin istintaqı zamanı, lokal xarakterli antiterror tədbirləri nəticəsində tərksilah edilmiş silahlı birləşmələrin sərəncamında olmuş digər xüsusi texniki vasitələrlə yanaşı, xaricdə istehsal olunan "Pole-21M", həmçinin yük avtomobillərinin bazası üzərində qurulan "Repellent-1" tipli və kustar üsulla quraşdırılmış radioelektron mübarizə kompleksləri də aşkar edilmişdir.

Taktiki-texniki göstəricilərinə əsasən, "Pole-21M" kompleksinin 150 km-dək məsafədə yerləşən obyektlərə "GPS", "QLONASS", "Galileo", "BeiDou" və sair tipli peyk naviqasiyası sistemlərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması üçün istifadə edildiyi müəyyən olunmuşdur.

"Repellent-1" kompleksindən havada olan obyektlərin radiorabitə vasitələrinin idarəetmə və məlumat ötürmə kanallarının siqnallarının 35 km-dək məsafədə aşkarlanaraq fəzada yerinin, istiqamətinin, süretinin təyin edilməklə izlənilməsi, idarəetmə və naviqasiya sistemlərinin işinə radiomaneə yaradılması, eləcə də kustar üsulla quraşdırılmış radioelektron mübarizə komplekslərindən obyektlərə "GPS" və "QLONASS" naviqasiya peyklərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması istiqamətində istifadə olunduğu təsdiqlənmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir.

**XQ**

# “Heydər Əliyev–İlham Əliyev doktrinası” və tarixi analogiyalar



*(əvvəli XQ-nin ötən sayında)*

***“Paasikivi-Kekkonen siyasi doktrinası”nın nəticələri nədən ibarət oldu. Şərqi Avropanın digər ölkələrindən fərqli olaraq Finlandiya sovet qoşunları tərəfindən işğal edilmədi, əsas demokratik institutları, Qərb demokratiyası qaydalarını qoruyub saxladı, bazar iqtisadiyyatı qaydalarını tətbiq etdi, sürətli sənayeləşməyə nail oldu... 1970-ci illərdə Finlandiyanın sənayesi Qərbi Avropa ölkələri səviyyəsində idi.***

Uzun illər SSRİ-ni nəzərə alaraq çoxtərəfli Qərb ittifaqlarından məsafə saxlayaraq ikitərəfli münasibətlərə üstünlük verən Finlandiya 1995-ci ilin yanvarın 1-də Avropa İttifaqına daxil oldu. Rusiyanın NATO ilə əlaqələrə çox həssas yanaşmasını nəzərə alan Finlandiya hətta 2023-cü ilədək alyansa üzv olmağa ehtiyac duymurdu. Yalnız Ukrayna müharibəsi başlandıqdan sonra, 2023-cü ilin aprelində Helsinki NATO-ya üzvlüyə qəti qərar verdi.

Gözümüz önündə geosiyasi reallığı nəzərə alan praqmatik, “realpolitik” nümunə var və bu, “Heydər Əliyev və İlham Əliyev siyasi doktrinası”nın mahiyyətcə oxşarıdır. Əsas ***məqsəd reallığın diktə etdiyi çərçivələr daxilində inkişaf etmək və şərtlərin yetişdiyi məqamı*** səb***irlə gözləyib hədəfə çatmaqdır. Burada “1. Obyektiv şərtlər, 2. Zaman və 3. Subyektiv şərtlər–dəyişikliyə hazırlıq səviyyəsi” əsas məqamlardır.***

1993–2020-ci illərdə, 30 il ərzində “Heydər Əliyev–İlham Əliyev doktrinası”nın, geosiyasi reallıqları nəzərə alan siyasi xəttin tətbiqi nəticəsində əvvəlcə ermənilərin hücumu dayandırıldı və 1994-cü ildə əks- hücumla bəzi ərazilər azad olundu, bunun ardınca Bişkek protokolunun imzalanması ilə dövlətin ən ağır böhran mənbəyi olan hərbi əməliyyatlara fasilə verildi, atəşkəs elan olundu. İki istiqamətdə separatizm ocağı söndürüldü, daxili siyasi və hərbi qarşıdurma mənbələri ləğv edildi. Heydər Əliyev böhran mənbələrinin bəzilərini ləğv etdi, bəzilərini isə neytrallaşdırdı və təcrid edərək ölkənin bütün həyatına təsirinin qarşısını aldı. Məhz böhran mənbələrinin hasarlanaraq ölkənin başqa sferalarına neqativ təsirini azaltmaq nəticəsində Azərbaycan sərhədlərinin xarici hərbçilərin nəzarətinə verilməsinin qarşısı alındı, xarici neft şirkətləri ilə müqavilələr imzalandı, iri infrastruktur layihələri həyata keçirildi, iqtisadiyyat bərpa olundu.

O zaman bəzən güzəşt hesab olunan və ermənilərin qələbə kimi təqdim etməyə çalışdıqları 1994-cü il Bişkek protokolu bu günün prizmasından baxdıqda, əslində, 2020-ci il 44 günlük savaşa hazırlıq üçün atılmış ilk addım olduğu görünür.

Ermənistanın simasında ciddi hərbi-siyasi ittifaqla üz-üzə təkbətək qalmış Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil oldu, Rusiya ilə iqtisadi və humanitar, mədəni əlaqələri bərpa etməyə başladı.

## Azərbaycanla Almaniya nümunəsinin müqayisəsi

Bütün müqayisələrdə müqayisə olunan hadisələrin heç də bütün elemetləri üst-üstə düşmədiyi üçün “hər cür müqayisə qüsurludur” deyirlər.

Amma, yenə də Heydər Əliyevin 1993-94-cü illərdə atdığı bəzi addımları İkinci dünya müharibəsindən sonra K.Adenauer və Villi Brandtın atdığı addımlarla da müqayisə etmək olar. Reallığı qəbul edən Adenauer 1955-ci ildə SSRİ ilə diplomatik münasibətlər yaratdı, amma parallel olaraq AFR-də Kommunist Partiyasını ləğv etdi. Eyni prinsiplə, Kekkonen SSRİ ilə yaxşı münasibətlərin, Xruşşovla dostluq əlaqələrinin hesabına Finlandiyanın sovetləşməsinin qarşısını almışdı. SSRİ ilə diplomatik münasibətlər Adenauerə ABŞ–SSRİ ziddiyyətlərindən Almaniyanın xeyrinə yararlanmaq üçün şərait yaradırdı.

Almaniya Federativ Respublikasının (AFR) realist kansleri Villi Brandt ölkədaxili təzyiqlər altında Almaniya Demokratik Respublikasını (ADR) və Şərqi Avropanın kommunist rejimlərini tanıdı. SSRİ ilə anlaşmaya nail oldu, Polşa ilə münasibətlər yaratdı. Bununla da AFR-in Avropadakı aqressiv dövlət imicini dəyişməklə yanaşı, sürətli iqtisadi inkişafı üçün siyasi mühit formalaşdırdı. İndi Qərb analitikləri hesab edirlər ki, Konrad Adenauerin Avropada inteqrasiya siyasətinin **(Avropa Kömür və Polad İttifaqının yaradılması)** və Villi Brandtın bu addımlarının nəticəsi idi ki, 1990-cı ildə Helmut Kol asanlıqla Almaniyanın birləşdirilməsinə nail oldu, Angela Merkel isə Almaniyanı Avropa İttifaqının iqtisadi və siyasi liderinə çevirə bildi.

Əgər paralellər aparsaq, Heydər Əliyevin MDB-yə üzvlük, atəşkəs başda olmaqla daxili və xarici böhran mənbələrini təcrid etmək siyasətini Almaniyada K.Adenauerin və Villi Brandtın, Finlandiyada isə Paasikivi-Kekkonenin siyasi xətti ilə müqayisə etmək olardı. **Prezident İlham Əliyevin siyasəti isə hər iki mərhələnin – “Adenauer–Brandt” və “Helmut Kol–Merkel mərhələləri”nin əlamətlərini ehtiva edir. Burada diqqət mərkəzində olan ölkələrin deyil, tətbiq olunan siyasi prinsiplərin müqayisəsi və paralellərdir.**

1993-2020-ci illərdə yürüdülmüş “Heydər Əliyev və İlham Əliyev siyasi doktrinası”nın analogiyasını uzaq Yaponiya tarixində Meydzi dövrünün (1868-1889-cu illər) daxili siyasi və iqtisadi transformasiya siyasətindəki paralellərdə də tapmaq olar. Heydər Əliyev Azərbaycanı və bütövlükdə Xəzər hövzəsini Qərb kapitalı üçün açdı və qapalı regionun dünya bazarlarına çıxışını təmin etdi, Meydzi sülaləsi isə Yaponiyanın özünütəcridinə son qoydu, məşhur **“İvakurun missiyası”** vasitəsilə dünyanın təcrübəsini Yaponiyaya gətirdi. **Yeri gəlmişkən, “İvakurun missiyası”nı Prezident İlham Əliyevin xaricdə təhsil proqramı ilə müqayisə etmək olar. Hər ikisində məqsəd dünyanın müxtəlif ölkələrindən təhsil, biznes və idarəçilik təcrübələrini mənimsəyib öz ölkəsində tətbiq etməkdir.**

Uzun illər Qərb koalisiyası Finlandiyanı SSRİ ilə yumşaq davranmaqda, siyasətini Kremllə uzlaşdırmaqda, Avropanın iqtisadi və hərbi strukturlarından məsafə saxlamaqda ittiham edir, SSRİ ilə əməkdaşlığa meyil göstərilməsini ironiya ilə “finlyandizasiya” adlandırırdılar.

Oxşar fikirlər “demokratiya” şüarları altında Azərbaycana qarşı da səslənirdi. Daxildə isə Qarabağı azad etmək üçün “Lazımi nə vaxt gələcək?” sarkazmı onu işlədənlərin özünə qarşı çevrildi. Halbuki, tarixi faktlar sübut edir ki, “Lazımın gəlməsini gözləmək” üçün böyük siyasi müdriklik, geosiyasi dəyişiklikləri proqnozlaşdırmaq və oxumaq, **dəyişəbilən şərtləri** öz xeyrinə dəyişmək qabiliyyəti tələb olunur.

SSRİ dağıldıqdan və Almaniya birləşdikdən sonra 1995-ci ildə Finlandiya Avropa İttifaqına, 1996-cı ildə Şengen Şurasına, Ukrayna savaşı başlandıqdan sonra 2023-cü ildə isə NATO-ya üzv oldu. Amma, yenə də Finlandiya Rusiyaya münasibətdə iqtisadi və geosiyasi, təhlükəsizliklə bağlı reallığı nəzərə alaraq qərarlar qəbul edir, bu gün də Finlandiya Prezidenti Sauli Niinistyö Qərbə Rusiya ilə münasibətlərdə körpüləri yandırmamağı, “bir-birinə azacıq da olsa dözümlü” yanaşmağı məsləhət bilir. ***(“Nyu-York Tayms”a müsahibədə. 17-19 sentyabr 2023-cü il.)***

Azərbaycan 44 günlük müharibə ilə ərazilərini azad etdikdən sonra Türkiyə ilə strateji, o cümlədən də hərbi və müdafiə sahələrini ehtiva edən Şuşa Bəyannaməsini, Rusiya ilə müttəfiqliyə dair bərabərhüquqlu Bəyannaməni imzaladı. Rusiya ilə imzalanmış müttəfiqlik bəyannaməsi Azərbaycanın yaratdığı yeni geosiyasi reallığı özündə ehtiva və rəsmən təsdiq edən, Azərbaycanın fundamental maraqlarını bərabərhüquqlu əsasda tanıyan, ölkəmizin təhlükəsizliyi üçün çox mühüm olan bir sənəddir.

## Addım-addım ərazi bütövlüyünə doğru

İstər Yaponiyada 1868-1889-cu illər Meydzi dövrünün və ondan sonra 1912-ci ilə qədər yürüdülən siyasəti, istər Adenauer və Villi Brandtdan Helmut Kol və Angela Merkelə qədərki Almaniya siyasəti, istər **Paasikivi-Kekkonen, istərsə də Heydər Əliyev–İlham Əliyev doktrinalarının uğurlarının təməlində duran səbəblər coğrafiyanı doğru qiymətləndirmək, onun diktə etdiyi reallıqdan çıxış etmək, uzun onilliklər boyu səbirlə hazırlaşaraq hədəfə doğru irəliləməyi bacarmaqdır.**

**Paasikivi və Kekkonenin 35 il ərzində apardıqları realist-praqmatik siyasi xətt bugünkü Finlandiyanın nail olduğu iqtisadi, siyasi və təhlükəsizlik konsepsiyasının bazasını təşkil edir. Məhz onların siyasi xətti bugünkü imkanları təmin etdi.**

**Almaniyada K.Adenauer və V.Brandtın tətbiq etdikləri “reallıqla barışıq siyasəti” Helmut Kola Almaniyanı birləşdirmək, A.Merkelə isə Avropa İttifaqının, avrozonanın lideri olmaq üçün tarixi, siyasi və iqtisadi zəmin yaratdı.**

“Heydər Əliyev-İlham Əliyev siyasi doktrinası” fərqli, özünəməxsus cəhəti isə odur ki, **geosiyasi reallığın nəzərə alınması, danışıqlara hazırlıq mütləq güc faktoru ilə müşayiət olunur**. Məsələn, Heydər Əliyev 1993-1999-cu illərdə Boris Yeltsinin təzyiq və iqtisadi blokada siyasətinə əks-təzyiqlərlə cavab verdi. Vladimir Putinin hakimiyyətə gəlişindən sonra isə Rusiyanın atdığı pozitiv addımları dərhal dəyərləndirib münasibətləri yaxşılaşdırmaq kursunu tətbiq etməyə başladı. İkinci misal: 1994-cü ildə Ermənistanla Bişkek protokolunu imzalamazdan öncə uğurlu hərbi əməliyyatlar keçirib bir neçə kəndi və Horadizi işğaldan azad etdi, yalnız bundan sonra atəşkəsə dair protokol imzalandı.

Eyni prinsipləri Prezident İlham Əliyevin 2016-cı ilin aprelindən indiyə qədər tətbiq etdiyi yanaşmalarda da müşahidə edirik. Güc tətbiqi ilə danışıqları bacarıqla növbələndirmək sayəsində Azərbaycan 44 günlük müharibə zamanı ən ağır relyef və hərbi şərtlər altında olan 3 rayonu, 19-20 sentyabr lokal antiterror əməliyyatı zamanı isə Qarabağdakı bütün qalan yaşayış məntəqələrini döyüşsüz azad edə bildi. Gücdən bacarıqla istifadə, vaxtında dayanıb danışıqlar aparmaq hər iki halda savaşın qalan hissəsini döyüşsüz qazanmağa imkan verdi.

Bu, həm də onu göstərir ki, Prezident İlham Əliyev gücdən yalnız son anda, zəruri və legitim nəticənin əldə olunması üçün dinc mexanizmlər tükənəndə istifadə etmək tərəfdarıdır. Nəticəyə yol açılan anda, güc tətbiqi dərhal dayandırılır. İkincisi, İlham Əliyevin tətbiq etdiyi gücün özü həm siyasi, həm də hüquqi baxımdan legitim olduğu üçün qarşıya qoyduğu hədəf də legitimdir.

Azərbaycan Ordusu 2022-ci ilin 13 sentyabrında strateji yüksəkliklərə nəzarəti ələ keçirəndən dərhal sonra – ertəsi günü xarici işlər naziri Ceyhun Bayramov Ararat Mirzoyan və Antoni Blinkenlə danışıq apardı. Oktyabrda isə Prezident İlham Əliyev Praqa Bəyanatını imzaladı.

2023-cü ilin aprelin 23-də Laçın sərhəd-keçid məntəqsinin bərpasından dərhal sonra Nyu-Yorkda A.Blinkenin vasitəçiliyi ilə və təkbətək formatda Ceyhun Bayramovla Ararat Mirzoyan arasında 4 gün ərzində danışıqlar keçirildi. İyulun 15-də isə Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə üçtərəfli görüş oldu.

**Bu məqamda klassik anqlo-sakson siyasi məktəbinin yetirməsi və ənənələrinin daşıyıcısı Marqaret Tetçerdən iqtibas gətirmək yerinə düşür: “Xarici siyasət və təhlükəsizliyin təmin olunmasında başqa dövlətlərlə münasibətdə öz məqsədlərinə çatmaq, hər şeydən əvvəl, güc və qüdrətdən istifadədir. Mən bir mühafizəkar kimi, bunu təsdiq etməkdən qətiyyən qorxmuram. Beynəlxalq münasibətlərdə gücdən istifadə etmədən istədikləri nəticələri əldə etməyi qoy başqaları sınaqdan çıxarsın. Onlar uğursuzluğa məhkumdur. Belə uğursuzluqlar isə əksər hallarda daha çox ziyan vurur, nəinki qüvvələr balansı və etibarlı müdafiə sistemi kimi ənənəvi vasitələr”.**

Qırx dörd günlük savaşın sona yetməsindən dərhal sonra Prezident İlham Əliyevin 3+3 formatının yaradılması təşəbbüsü ilə çıxış etməsi də “Heydər Əliyev–İlham Əliyev doktrinası”nın məntiqindən doğur. 3+3 formatı müharibədən sonra formalaşmış yeni geosiyasi vəziyyətin qonşu dövlətlərə qarşı çevrilmədiyini, əksinə region üçün yeni imkanlar açdığını nümayiş etdirir. Təsadüfi deyil ki, Azərbaycanın Hərbi doktrinasının “müdafiə siyasəti” bölümündə “qonşularla münasibətlərin inkişafı” təhlükəsizliyin qeyri-hərbi kompanentləri sırasında birinci yerdə gəlir.

Ermənistandan fərqli olaraq bu gün də qonşularla münasibətlər Azərbaycanın xarici siyasətinin əsas istiqamətini təşkil edir. Əvvəla ona görə ki, dünyada qlobal miqyaslı gərginliklər artdıqca qonşularla sülh və əməkdaşlıq, ticarət əlaqələrinin genişləndirilməsi təhlükəsizliyin prioritetinə çevrilir. Qonşularla sülh sərhədlərin bilavasitə təhlükəsizliyi və deməli, hərbi-siyasi, fiziki təhlükəsizliyin təminatı deməkdir. Qonşularla yaxşı münasibətlər iqtisadi baxımdan bazarın genişləndirilməsi, ticarət dövriyyəsinin artması, region üçün prioritet olan qlobal nəqliyyat dəhlizlərinin fəaliyyəti və ölkələrdə sosial vəziyyətin sabitləşməsi deməkdir ki, bunlar da iqtisadi və təhlükəsizlik aspektləridir. Belə görünür ki, hazırda qonşularla yaxşı münasibətlər bütövlükdə milli təhlükəsizliyin baza prinsipinə çevrilib. “Heydər Əliyev-İlham Əliyev doktrinası” isə bu şərtləri nəzərə almağın üzərində qurulub və 30 il ərzində onun bazasını yaradıb.

*Beləliklə, əgər tarixi hadisələrin nəticələri onlardan öncəki şərtlərlə proqnozlaşdırılmayıbsa, gözlənilməz nəticələri ortaya qoyubsa, burada şəxsiyyətlərin və milli ruhun rolu danılmazdır. Şəxsiyyətin rolu isə reallığın diktə etdiyi şərtlərlə hesablaşmaq, vəziyyəti düzgün qiymətləndirmək, əlverişsiz qüvvələr nisbətinin dəyişməsinə çalışmaq və nəhayət, qüvvələr nisbətinin dəyişdiyi məqamı dəqiq müəyyənləşdirmək, etibarlı müdafiə sistemi qurmaqdan ibarətdir. Milli ruh isə ümumilli və tarixi məqsəd ətrafında həmrəyliyi ehtiva edir.*

***İbrahim MƏMMƏDLİ,***
**tarix üzrə fəlsəfə doktoru**

# Ulu öndərin gənclər siyasəti

**Naxçıvan şəhərində Azərbaycan Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun və Gənclər Təşkilatları Milli Şurasının birgə təşkilatçılığı ilə “Heydər Əliyev və gənclər siyasətinin Azərbaycan modeli” mövzusunda konfrans keçirilib.**

Çıxış edənlər bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etməsinin məhz Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin bəhrəsi olduğunu, həmin siyasi xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusilə vurğulayıblar.

Həmçinin, İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfərin ölkəmizin hərbi qüdrəti ilə yanaşı, həm də Ümummilli liderin böyük müdrikliklə işləyib hazırladığı və Prezident Iham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət strategiyasının qələbəsi olduğu bildirilib.

Qeyd edək ki, “Heydər Əliyev İli” çərçivəsində keçirilən konfransın məqsədi Ulu öndərin zəngin irsinin və həyat yolunun gənclər təşkilatları arasında təbliği, həmçinin gənclərin bu istiqamətdə məlumatlılığının artırılmasından ibarət olub.

***XQ***



20 Oktyabr Zəngilan Şəhəri Günüdür

# “44 gün”ün 24-cü gün müjdəsi



**Vətən müharibəsinin 24-cü günü – 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Bu, qürurverici və unudulmaz qələbə Zəfər tariximizn ən şanlı səhifələrindən biridir.**

Azərbaycan dövləti bu əlamətdar hadisəni əbədiləşdirmək qərarına gəlib. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncamla 20 oktyabr Zəngilan şəhəri günü elan edilib. Bu il ilk dəfədir ki, xalqımız bu şanlı qələbəni təntənəli surətdə, böyük ruh yüksəkliyi və coşqu ilə bayram edir.

Vətən müharibəsinin hər bir günü kino lenti kimi gözlərimiz önündə canlanır. Yaxşı xatırlayırıq ki, Ali Baş Komandan İlham Əliyev Zəngilanın düşməndən azad olunduğu xəbərini böyük sevinc və qürur hissilə xalqımıza çatdırdı.

Dövlətimizin başçısı xalqa müraciəti zamanı Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin işğaldan azad edildiyini bildirdi. Bu xoş müjdə bir an içində ölkəmizin hər bir guşəsinə və bütün dünyaya yayıldı.

Uzun illərdən bəri yaxşı tanıdığım Zəngilan ziyalısı, təcrübəli pedaqoq Nazim Dünyamalıyev dedi ki, həmin gün hamı kimi onun da sanki sevincindən uçmağa qanadı yox idi. Zarafat deyil, 27 illik yurd, Vətən həsrətinə son qoyulmuşdu. Hamı çox xoşbəxt idi və bir-birini müjdələyirdi.

Bu yazının müəlliflərindən biri təxminən 10 ilə yaxın “Bakinski raboçi” qəzetinin Mil-Muğan regionu üzrə zona müxbiri vəzifəsində işləyərkən Zəngilan rayonuna tez-tez ezamiyyətə gedər, bu rayonun əmək kollektivlərinin uğurları, eləcə də bölgənin qeyri-adi təbii gözəllikləri barədə qəzetə çox sayda məqalə, korrespondensiya yazaraq dərc etdirmişdir. Mərd, süfrəsi açıq, ürəyi geniş insanlar kimi tanıdığı bütün zəngilanlılar ona məhrəm və doğma insanlardır.

Qeyd etmək lazımdır ki, 1988-ci ildən başlayaraq Ermənistanla sərhəddə yerləşən Zəngilan rayonunun bir çox kəndlərində olduqca gərgin vəziyyət yaranmışdı. O zaman bu torpağın igid, qeyrətli oğulları gecə-gündüz sərhədlərdə keşik çəkir, əhalini erməni quldur dəstələrinin silahlı basqınlarından qoruyurdular.

Sonrakı illərdə, xüsusilə 90-cı illərin əvvəllərində zəngilanlılar doğma yurdun müdafiəsi uğrunda döyüşlərdə çox sayda qurbanlar verdilər. Lakin o dönəmdə Ermənistanın silahlı qüvvələri öz havadarlarının köməyilə torpaqlarımızı işğal etdilər. 27 illik işğal dönəmində erməni vandalları bu gözəl diyarın kəndlərini, məktəb və bağçalarını, məscid və mədəniyyət abidələrini, istisnasız olaraq bütün ev və binalarını dağıdıb viran qoydular, təbii sərvətlərini vəhşicəsinə daşıyıb apardılar.

Bütün bu vəhşiliklər, təbii ki, cavabsız qala bilməzdi. Dünyada ilahi ədalət mövcuddur, bunda bəşəri dəyərdən qaynaqlanan dərin bir hikmət var. Azərbaycan gücünü toparladı, ordusunu gücləndirdi və Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə xain düşməni torpaqlarımızdan qovdu.

Xatırladaq ki, 1993-cü il oktyabrın 30-da süqut edən zaman Zəngilan rayonu 1 şəhər, 5 qəsəbə və 79 kənddən ibarət idi. 30 minə yaxın sakın respublikanın müxtəlif şəhər və rayonlarına səpələnərək məskunlaşdı. Qaçqınlıq taleyi təkcə çətin həyat şəraiti, ağır güzəran deyil, bunlardan heç də az ağrısı və möhnəti olmayan torpaq acısı, nisgilidir. Əlbəttə, ata-baba yurd yerlərini itirən zəngilanlı qaçqın ailələri üçün həmin dönəmlər çox çətin günlər idi. Lakin hər bir zəngilanlı ailəsi Azərbaycan dövlətinin heç vaxt azalmayan diqqət və qayğısı ilə əhatə olundular.

Bu məqamda qeyd etmək yerinə düşər ki, Zəngilan istiqamətində aparılan döyüşlər İkinci Qarabağ müharibəsinin ən gərgin döyüşlərindən hesab olunur. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Zəngilan rayonundan şərqdə yerləşən Cəbrayıl rayonunda düşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və 30-dan çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin Zəngilan rayonunun inzibati hüdudlarına çatmasına şərait yaratdı.

Bu il artıq üç ildir ki, Zəngilan torpağı azad nəfəs alır. Bu illər ərzində rayonda olduqca geniş tikinti-quruculuq işləri aparılıb. Xüsusi qeyd etmək lazımdır ki, Füzulidəki böyük aeroportdan sonra Zəngilan Beynəlxalq Hava Limanı qısa zaman kəsiyində inşa edilərək istifadəyə verilibdir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan bu mühüm obyektin açılışında iştirak ediblər.

2022-ci il mayın 27-də isə Zəngilan rayonunda yerləşən “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Hazırda Ağalıda ümumilikdə 133 ailədən 649 nəfərin məskunlaşması təmin olunub.

Zəngilan RİH başçısının müavini, Sosial-iqtisadi inkişafın təmini və proqnozlaşdırılması şöbəsinin müdiri Xanım Rüstəmova bildirdi ki, Zəngəzur dəhlizinin, yeni nəqliyyat xətlərinin istifadəsi rayonun iqtisadi inkişafına böyük dəstək göstərəcək. Hazırda bu ərazilərdə yeni nəqliyyat infrastrukturu yaradılır. Horadizdən Ağbəndə kimi avtomobil yolu çəkilir və dəmir yolu infrastrukturu bərpa olunur. Bu tədbirlər nəticəsində bölgənin tranzit imkanları artır.

Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Artıq qarşılıqlı razılaşma əldə olunub, körpünün layihəsi hazırlanıb.

Ağbənd avtomobil yolu ilə gündəlik 1100 avtomobilin, 30 avtobusun, 15 min insanın sərhəddən keçidi təmin olunacaq. Yol tranzit yüklərin daşınmasına da xidmət edəcək. Həm Azərbaycan, həm İran, həm də region üçün əhəmiyyətli




olacaq. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonu üçün zəruri infrastrukturdur.

Daha bir infrastruktur strateji əhəmiyyəti olan Horadiz-Zəngilan-Ağbənd dəmir yoludur. Belə ki, bu dəmir yolu azad edilmiş torpaqlara vətəndaşların rahat gəlməsini, yüklərin daşınmasını, həm də Naxçıvanla əlaqəni təmin edəcək. Bununla da Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq.

Qeyd edək ki, dövlətimizin başçısı bu il sentyabrın 28-29-da Zəngilana səfər etmiş, Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını etmişdir, Alıbəyli və Zəngilan kəndinin, Zəngilan şəhərində 2, 3 və 4-cü yaşayış məhəllələrinin, o cümlədən bir çox infrastruktur layihələrinin təməllərini qoymuşdur.

Zəngilanın yenidən qurulması işində qarşıda duran vacib məsələlərdən biri də işğal dövründə məhv edilən ekosistemin bərpasıdır. Bəsitçay hövzəsi boyunca mövcud olmuş təbii çinar meşəsi Avropanın ən böyük, dünyanın isə ikinci ən böyük çinar meşəsi olub. Lakin Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində çinar meşələri ekosidə məruz qalıb.

Zəngilanın ekosisteminin bərpası üçün 20 min çinar ağacı və 1000 kiloqrama yaxın palıd toxumu əkilib. Zəngilan rayonunda həm də dayanıqlı kənd təsərrüfatının, turizm sahəsinin, xüsusilə ekoturizmin və kənd turizminin inkişafına təkan verə biləcək sahələrin yaradılması da nəzərdə tutulub. Bütün bu işlər burada yaşayan əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfə verəcək.

Bütün bu layihələr investisiya cəlbediciliyinə malikdir və ölkələrin xarici əlaqələrini gücləndirmək və inkişaf etdirmək üçün regiona daha çox beynəlxalq tərəfdaşları cəlb etmək məqsədi daşıyır.

Erməni vandallarının vəhşicəsinə yandırdığı, söküb dağıtdığı, talayıb apardığı, viran qoyduğu Zəngilan rayonunda qurub-yaratmaq eşqi ilə dolu olan həyat yenidən qaynayır. Hamıdan çox bərəkətli Zəngilan torpağı sevinir. Ona görə ki, bu yerlərin həqiqi sahibləri əbədi olaraq qayıdıblar.

***Pünhan ƏFƏNDİYEV***
***Məsaim ABDULLAYEV***
***XQ***

Parlament xəbərləri



## Gələn il pensiyalar artacaq

Hər ilin yanvar ayında pensiyalardakı artım əvvəlki ildə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun olaraq həyata keçirilir. Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib. O, bu ilin 7 ayında orta aylıq əməkhaqqının 11,2 faiz artdığını bildirib.

Yeni ildən pensiyaların təxminən 11 faiz ətrafında indeksasiya olunaraq artırılacağını deyən V. Bayramov konkret rəqəm açıqlayıb: “Burada bütün növ əmək pensiyaların artırılmasında söhbət gedir. Əvvəlki illərdə təxminən 100 minə yaxın vətəndaşımızın əmək pensiyası artırılmışdı. Amma indi əmək pensiyası alan bütün vətəndaşlarımızın pensiya məbləğləri indeksasiya olunaraq artırılacaq. Artım məbləği fərqli olacaq. Yəni artımlar faizlə hesablandığı üçün bu, pensiya məbləğindən asılı olaraq dəyişəcək. Məsələn, 1000 manat pensiya alanlarda təxminən 100 manatdan artıq artım olacaq”.

## Atalıq məzuniyyəti olsunmu?

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova atalıq məzuniyyətinin ödənişli olmasını təklif edib: “14 gün ödənişsiz atalıq məzuniyyəti verilir. Ödənişsiz məzuniyyətin verilməsi isə müsbət qarşılanmır. Çünki ödənişsiz məzuniyyət ailə üçün əlavə maliyyə çətinliyi yaradır. Amma araşdırmalar göstərir ki, atalıq məzuniyyətinin verilməsi ailəyə müsbət təsir edir. Ona görə də ödənişli atalıq məzuniyyətinin verilməsini tətbiq etmək lazımdır”.

## Bu kateqoriyadan olan uşaqlara güzəşt ediəcək

Bu məsələ Milli Məclisə təqdim edilmiş “Sosial xidmət haqqında” Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb. Layihəyə əsasən, valideyn himayəsindən məhrum olmuş 18 yaşına çatan şəxslər üçün yeni güzəşt tətbiq olunacaq.

Əmək və sosial siyasət komitəsinin sədi Musa Quliyev deyib ki təklif edilən dəyişikliyə əsasən, həmin şəxslər çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq və onlar da mənzil alana qədər dövlət müəssisələrində yaşayış yeri ilə təmin olunacaqlar: ” Valideyn himayəsindən məhrum olmuş şəxslər 18 yaşına çatdıqdan sonra sosial xidmət müəssisələrini tərk edir və adətən, ev alana qədər ağır şəraitdə yaşayırlar. Kirayədə qalanlar kirayə haqqı verə bilmirlər. Bu qanunun qəbulundan sonra həmin şəxslər çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq və onlar da ev alana qədər dövlət müəssisələrində yaşayış yeri ilə təmin olunacaqlar. Eyni zamanda, onları daha tez siyahıya salıb mənzillərlə təmin etmək mümkün olacaq”.

## Strateji məhsullara qiymət tənzimlənməsi

“Azərbaycanda “Dövlət ehtiyatları haqqında” yeni Qanun qəbul edildikdən sonra istehlak bazarında strateji ərzaq məhsullarının qiymətində kəskin artımların qarşısı alınacaq”. Bu fikir Milli Məclisdə qanun layihəsinin müzakirəsi zamanı səsləndirilib.

Qeyd edilib ki, qanun layihəsinə əsasən, vətəndaşlarımızın daha çox istifadə etdiyi məhsullar üzrə strateji ehtiyatların yaradılması nəzərdə tutulur. Yalnız taxıl deyil, eyni zamanda, digər vacib ərzaq məhsulları üzrə strateji ehtiyatlar yaradılacaq. Strateji ehtiyatların həm dövlət, həm də bu sahədə fəaliyyət göstərən özəl şirkətlər tərəfindən yaradılması nəzərdə tutulur. Bununla yanaşı, istehlak bazarında qiymətlərin monitorinqi aparılacaq. Əgər hər hansı strateji əhəmiyyət daşıyan ərzaq məhsulunun qiymətində artımlar varsa, o zaman həmin ehtiyatlardan istifadə etməklə qiymətlərin tənzimlənməsi və artmış qiymətlərin aşağı salınması təmin olunacaq.

***Hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# İkitərəfli əlaqələr müzakirə edilib

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin rəhbərliyi ilə mərkəzin nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığında səfərdə olub.**

Mərkəzdən bildiriblər ki, səfər zamanı bu ölkənin aparıcı beyin mərkəzlərində görüşlər, dəyirmi masalar təşkil olunub, tərəflər arasında regional məsələlər və ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi aparılıb.

BMTM-in nümayəndələri əvvəlcə Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyinin Şahzadə Səud Əl-Faysal Diplomatik Araşdırmalar İnstitutunda ikitərəfli əlaqələr və regional münasibətlər mövzusunda konfransda gənc diplomatlar qarşısında çıxış ediblər.

***XQ***

# Xaçınçay Ağdama bolluq, qazanc gətirəcək

**Azərbaycanda irili-xırdalı 140 su anbarı mövcuddur. Onların ümumi su həcmi 21,9 milyard kubmetr təşkil edir. Bu anbarlar ölkənin əkinçilik təsərrüfatında böyük əhəmiyyətə malikdir.**





Həmin su anbarlarından biri 1964-cü ildə Xaçınçay üzərində tikilib. Uzunluğu 940 metr, tutumu isə 23 milyon kubmetr olan anbarın suyundan işğaldan əvvəl Ağdam şəhəri və ətraf yaşayış məntəqələrinin su ehtiyacının ödənilməsi üçün istifadə edilirdi. Rayonun 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı nəticəsində su anbarından 27 il istifadə etmək mümkün olmayıb. Bu müddət ərzində heç bir təmir işi aparılmayıb, beton divarlar yararsız vəziyyətə düşüb. Buna görə də anbarda su sızmaları baş verib. Eyni zamanda anbar çirklənməyə məruz qalıb.

2020-ci ilin sonunda Ağdamın işğaldan azad edilməsi nəticəsində Xaçınçay Su Anbarı ordumuzun nəzarətinə keçdi. Lakin yaxınlıqdakı yüksəklik ermənilərdə olduğundan əraziyə onlar vizual nəzarət edirdilər. 2022-ci ilin mart ayında Fərrux yüksəkliyi düşməndən təmizləndikdən sonra bu təhlükə də aradan qaldırıldı. Geniş əkin sahələrini təmin etməyə qadir Xaçınçay Su Anbarı mühafizə altına alındı.

Bu barədə Prezident İlham Əliyev bildirib ki, Fərrux dağının Azərbaycan üçün xüsusi əhəmiyyəti var. Azərbaycan Ordusu bu yüksəkliyi nəzarətə götürməsəydi, oradakı silahlı separatçılar daim Ağdam şəhərinə və su anbarlarına təhlükə yaradacaqdı: “Bildirməliyəm ki, Xaçınçay Su Anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyüründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var”.

Prezident Xaçınçay Su Anbarından ayrılan 7 kilometr uzunluğundakı kanalın təmir olunmasını da qarşıya mühüm vəzifə kimi qoyub. O vaxtdan anbarın təmir və bərpa işlərinə start verilib. Xaçınçay Su Anbarında və oradan çıxan beton kanalda əsaslı təmir işləri görülür. **Bu barədə Su Ehtiyatları Agentliyinin sədr müavini Rafiq Aslanov bildirdi:**

– Xaçınçay Su Anbarının ərazisi işğaldan azad olunandan sonra 2020-ci ildə Prezident tərəfindən Dövlət Su Komissiyası yaradılıb. Komissiyanın sədri və üzvləri dəfələrlə bu ərazidə olublar. O zaman anbar demək olar ki, tamamilə dağıdılmışdı. Eyni zamanda, bənd də qəzalı vəziyyətdə idi. Bununla bağlı komissiya iclaslar keçirərək təcili tədbirlər görülməsinin zəruriliyini vurğuladı. İlk növbədə ərazi minadan təmizləndi, iqtisadi-texniki əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasına başlandı.

Tikinti işlərinin aparılması məqsədilə keçirilən müsabiqənin qalibi olan Körpü Bina Tikinti Şirkətinə təmir üçün 10 milyon manat ayrıldı. Təkcə bəndin yamacının beton hissəsi 80 min kvadratmetrə yaxın aşınmışdı. Həmin hissəsi sökülüb çıxarıldı. Artıq bu hissədə bərpa işləri tamamlanıb. 20-30 santimetr qalınlığında beton vurulub.

Yamacda görülən işlərlə yanaşı, suqəbuledici qurğular çox pis vəziyyətə düşmüşdü, su anbarının qapıları sökülüb aparılmışdı. Qapıların, estakadanın, suqəbuledici qurğunun bərpası həyata keçirildi. Bundan başqa, bəndin qəza sutullayıcısında müəyən bərpa işləri aparıldı, magistral kanalın 7 kilometr hissəsində suburaxma qabiliyyəti 3,2 kubmetr saniyədir. Burada da betonlama işləri yekunlaşıb.

Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərinin su təchizatı barədə danışan Baş nazirin müavini, komissiyanın sədri Şahin Mustafayev isə bildirib ki, həcmi 23 milyon kubmetr olan Xaçınçay Su Anbarının və ondan ayrılan uzunluğu 7 kilometr, suburaxma qabiliyyəti saniyədə 4 kubmetr olan suvarma kanalının təmir-bərpası sayəsində Ağdam rayonunun 7 min hektar torpaq sahəsinin su təminatı yaxşılaşdırılacaq. Bu işlər 2023-cü ilin üçüncü rübü ərzində tamamlanacaq.

Qeyd edək ki, yayda yağıntılar nəticəsində Xaçınçay Su Anbarı tam dolmuşdu. Su anbarından artıq su çaya axırdı. Selin yaşayış məntəqələrinə, əkin sahələrinə və təsərrüfatlara ziyan vurmaması üçün Ağdam Mexaniki Suvarma İdarəsinin texnikası və canlı qüvvəsi əraziyə cəlb olunmuşdu. Çaya gələn sel sularından isə suvarmada səmərəli şəkildə istifadə edilib. Su əkin sahələrinə yönləndirilib. Ərazidə elektriklə işləyən subartezian quyularının fəaliyyəti dayandırılıb ki, bu da elektrik enerjisinə qənaət deməkdir.

Qarabağ ərazisində ekosistemin bərpasına töhfə vermək, o cümlədən su hövzələrinin zənginləşdirilməsi, balıq populyasiyasının artırılması məqsədilə Ağdam rayonunda Xaçınçay Su Anbarına 40 min balıq körpəsi buraxılıb.s

Beləliklə, bütün dünyada iqlim dəyişikliyi və onun nəticəsində su qıtlığı ən aktual problemə çevrildiyi bir vaxtda ölkənin su ehtiyatlarından səmərəli istifadə edilməlidir. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması isə bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək. İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Habelə bölgənin ekoloji vəziyyətinə nəzarət etmək asanlaşacaq.

***P.ƏFƏNDİ***
***XQ***

# Regional inkişafda tarixi dönüş



## Son 20 ildə şəhər və rayonlar müasir tərəqqiyə qovuşub

(əvvəli 1-ci səhifədə)

Regional inkişafdan bəhs edərkən Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan sənaye zonalarının fəaliyyətinə də diqqət yetirmək istərdik. Xatırladaq ki, indiyədək bölgələrdə 7 sənaye parkı və 5 sənaye məhəlləsi yaradılıb. Sənaye zonalarında, ümumilikdə, 10 milyard manatdan çox məhsul istehsal edilib ki, bunun da 3,4 milyard manatlıq hissəsi ixrac olunub.

Respublikada 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq bir müddət ərzində 583 layihə təşviq olunub. Həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq sərmayə yatırılması, naye məhəllələrinin tabe müəssisələrində əlverişli investisiya mühiti formalaşdırılıb. Bu təsərrüfatlarda sahibkarlığın müasir dünya təcrübəsi əsasında formalaşması üçün rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunub.

Regionlarda sosial–iqtisadi inkişaf strategiyasına uyğun olaraq sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə real sektora özəl investisiyaların cəlbi



39 minədək iş yerinin yaradılması nəzərdə tutulub. Sözügedən layihələrin 86 faizi regionların payına düşüb.

***Bölgələrdə kənd təsərrüfatının inkişafı istiqamətində də çoxsaylı layihələr icra edilib, bu yöndə müxtəlif infrastruktur obyektləri istifadəyə verilib. Aqroparkların yaradılması diqqətdə saxlanılıb. Son illərdə fəaliyyətə başlayan 46 aqroparka sahibkarlar tərəfindən 1,5 milyard manatdan çox investisiya qoyulub, 4800-dən çox iş yeri açılıb.***

Regional proqramlar çərçivəsində bölgələrdə sənayeləşmə siyasətinin həyata keçirilməsinə mühüm əhəmiyyət verilib, bu istiqamətdə yeni yaradılan sənaye parkları və məhəllələrinin səmərəli fəaliyyəti məqsədilə bir sıra layihələr reallaşdırılıb. Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz vadisi İqtisadi Zonası" sənaye parklarının və Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur səgücləndirilib. Dövlət başçısının 2016-cı il 18 yanvar tarixli fərmanı ilə təsdiqlənən "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na əsaslanaraq həmin sənədlərin təqdim olunması nəticəsində təkcə ötən il ərzində 49 sahibkarlıq subyekti tərəfindən yerli istehsala 665 milyon manat investisiya yatırılıb və 2 min 323 yeni iş yeri açılıb.

Son 20 il ərzində ölkəmizdə həyata keçirilən regional inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də yol infrastrukturunun müasir standartlara cavab verən səviyyədə yenidən qurulması olub. Bu mühüm vəzifənin uğurla icrası məqsədilə dövlət büdcəsindən hər il böyük həcmdə vəsait ayrılıb və bunun hesabına dünya standartlarına cavab verən yüksək keyfiyyətli avtomobil yolları salınıb. Belə ki, 2003-cü ildən indiyə kimi respublikamızda 6,2 milyon nəfər əhali yaşayan, 2 min 210 yaşayış məntəqəsini birləşdirən kəndlərarası 5 min 100 kilometr uzunluğunda avtomobil yolu tikilib, yenidən qurulub və təmir olunub.

Yuxarıda diqqətə çatdırılan göstəricilər son illər respublikamızın bütün şəhər və rayonlarının sürətlə müasirləşməsi, abadlıq-quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi, böyük infrastruktur layihələrinin gerçəkləşdirilməsi, yeni iş yerlərinin yaradılması və vətəndaşların sosial rifahının yüksəldilməsinin, bir sözlə, regional strategiyanın uğurla icrasının məntiqi nəticəsidir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı**

Uzunmüddətli iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin regionlarının davamlı və tarazlı inkişafı təmin olunub, yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat formalaşdırılıb. Bir sözlə, Prezident İlham Əliyevin 20 illik prezidentliyi dövründə regionların sosial¬-iqtisadi inkşafı daim prioritet istiqamət kimi diqqətdə saxlanılıb.

Artıq bir neçə gündür ki, ölkəmizdə cənab İlham Əliyevin Prezident seçildiyi ötən 20 il ərzində əldə edilən uğurlardan danışılır və dövlət başçısının Xankəndi şəhərində Azərbaycan Bayrağının qaldırılmasının xoş ovqatı yaşanılır.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq yeni iqtisadi inkşaf strategiyasını uğurla həyata keçirir. Bu müddətdə 4 regional sosial-iqtisadi inkşaf proqramı qəbul olunub və yüksək səviyyədə icrası nəticəsində milli iqtisadiyyatın real həcmi 4 dəfə, ixrac isə 15,6 dəfə artıb. Regional siyasət nəticəsində bölgələr arası qeyri-bərabərlik azaldılıb, 1,5 milyondan çox iş yeri açılıb. 2003-cü ildə ÜDM-in nominal həcmi 7,1 milyard manat olduğu halda ötən il həmin göstərici 133,7 milyard manata yüksəlib.

Bütün bunlarla yanaşı, 2019-2023-cü il dövlət proqramı çərçivəsində elektrik enerjisi sahəsində ciddi addımlar atılıb. Qazlaşdırma prosesi uğurla davam etdirilib. Bu gün demək olar ki, respublikanın bütün bölgələrinə təbii qazın verilişi təmin olunub. Avtomobil yollarının keyfiyyətinə görə, Azərbaycan dünyada 20-ci yerdə qərarlaşıb.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa-quruculuq layihələri uğurla davam etdirilir. Yaşayış binaları, sosial obyektlər tikilir, yollar çəkilir, kommunikasiya xətləri qurulur, bir sözlə, bu yerlərdə həyat yenidən canlanır.



## MDB ölkələri ilə ticarət 5 milyard dollara çatıb

***Dövlət Gömrük Komitəsinin hesablamalarına görə, 2023-cü ilin yanvar–sentyabr aylarında Azərbaycanla MDB ölkələri arasında ticarət dövriyyəsinin dəyəri 4 milyard 735 milyon dolları təşkil edib.***

Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz və ya 524 milyon 129 min dollar çoxdur. Ötən ilin yanvar-sentyabr aylarında Azərbaycanla MDB ölkələri arasında ticarət dövriyyəsinin dəyəri isə 4 milyard 210 milyon dollar təşkil edib.

Hesabat dövründə MDB ölkələrinə ümumi ixrac illik müqayisədə 1 faiz artaraq 1 milyard 183 milyon dollara, bu dövlətlərdən ümumi idxal isə 16,9 faiz artaraq 3 milyard 551 milyon 84 dollara bərabər olub.

Qeyd edək ki, bu dövrdə MDB ölkələri ilə ticarət əməliyyatları ölkəmizin ümumi ticarət dövriyyəsinin 28,16 faizini təşkil edib.

## Əmlak icarəsindən 24,4 milyon manat gəlir götürülüb

***İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" (tvitter) sosial şəbəkə hesabında 2023-cü ilin 9 ayı ərzində daşınmaz dövlət əmlakının icarəsindən dövlət büdcəsinə 24,4 milyon manat daxil olduğunu bildirib. "Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 24 faiz çoxdur",– deyə nazir qeyd edib.***




Qeyd edək ki, Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin 8 ayında isə 40 özəlləşdirmə hərracı keçirilib. Hərraclarda 9 səhmdar cəmiyyətinin səhm paketi, 13 kiçik dövlət müəssisəsi, 3 yarımçıq tikili sahəsi, 361 nəqliyyat vasitəsi özəlləşdirilib, bu prosesdən dövlət büdcəsinə daxilolmalar 89,2 milyon manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə artıb. Beləliklə, 2023-cü ilin yanvar-avqust ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə 111 milyon manat vəsait daxil olub.

***XQ***



## "Azərbaycan" İES-in gücü 1880 meqavata çatacaq

**"Azərenerji" ASC- nin ictimaiyyətlə əlaqələr və media mərkəzinin rəhbəri Teymur Abdullayevin mediaya açıqlamasına görə, cari ilin fevral ayında təməli qoyulan Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) ərazisində inşa edilən yeni elektrik stansiyasında tikinti işləri sürətlə davam etdirilir.**

Artıq İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan qaz turbinləri və generatorlar gəmiyə yüklənərək Azərbaycana çatdırılıb. İndiyədək 4 qaz turbininin, generatorların və qazanların bünövrə, betonlanma əməliyyatları yekunlaşdırılıb.

Qeyd edək ki, 1280 meqavatlıq bu yeni elektrik stansiyası və "Azərbaycan" İstilik Elektrik Stansiyasının mövcud 7 və 8-ci bloklarının əlaqələndirməsi nəticəsində ümumi güc 1880 meqavat olacaq. Bununla da faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq.

Yeni elektrik stansiyasının qaz turbinlərində bir dəfə işlənən qaz utilizasiya yolu ilə suyu buxara çevirəcək və "Azərbaycan" İES-in 7 və 8-ci bloklarının buxar turbinlərində əlavə qaz istifadə olunmadan enerji almağa imkan verəcək. Əlaqələndirmə nəticəsində ildə 800 milyon kubmetr qaza qənaət olunacaq.

***XQ***

# Türk dünyasının gücü və nüfuzu iqtisadi inteqrasiya ilə yüksələcək

## Bu dövlətlər Avropa İttifaqından böyük coğrafiyanı əhatə edir

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda "Türk dünyası iqtisadiyyatı: inteqrasiya və inkişaf" mövzusunda elmi müzakirə keçirilib. İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim İmanov tədbirdə çıxış edərək bu mövzuda müzakirələrin aparılmasının türk dövlətlərinin iqtisadiyyatlarının daha sıx inteqrasiyasına töhfə verəcəyini söyləyib.**



Daha sonra İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı "Türk dünyası iqtisadiyyatı: inteqrasiya və inkişaf" mövzusunda məruzə edib. Bildirib ki, türk dövlətləri arasında münasibətlər yüksələn xətlə inkişaf edir və bu münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın prioritet istiqamətlərindəndir.

Vüsal Qasımlı çıxışı zamanı Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin Avropa İttifaqının ərazisindən daha böyük coğrafiyanı əhatə etdiyini vurğulayıb və deyib ki, əgər TDT bir dövlət olsaydı, dünyada "top-10"luğa düşərdi.

İqtisadçı professorun sözlərinə görə, türk dövlətləri dünya əhalisinin 2,2 faizini, ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ÜDM-in 1,6 faizini təşkil edir. Mövcud potensial isə bu rəqəmlərin gələcəkdə artırılmasına imkan verir. Professor türk dövlətlərinin logistik imkanlarından, eləcə də çoxtərəfli ticarət dövriyyəsinə təsir edən amillərdən də danışaraq deyib ki, "Heartland"də yerləşən Türk Dövlətləri Təşkilatı (TDT) Şərqlə Qərbi birləşdirən Orta Dəhlizin əsas drayveridir.

Mərkəz rəhbəri türk dövlətləri arasında birbaşa xarici investisiya qoyuluşunun və ticarət əlaqələrinin şəbəkə analizinin nəticələrini açıqlayıb. O, eyni zamanda, "Qravitasiya modeli"nin nəticələrinə əsaslanaraq qeyd edib ki, türk dövlətlərində paytaxtlararası məsafənin böyük olması ticarət dövriyyəsinə mənfi təsir göstərsə də, ortaq dil, ÜDM, əhali sayı və ümumi sərhədlərin mövcudluğu ticarət dövriyyəsinə müsbət təsir göstərir.

İcraçı direktor türk dövlətləri arasında siyasi və iqtisadi inteqrasiyanın dərinləşməsində "Türk Dünyasına Baxış - 2040" sənədinin xüsusi rolu olduğunu söyləyərək qeyd edib ki, sənəddə türk dövlətləri arasında iqtisadi işbirliyi, nəqliyyat, gömrük, enerji, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın yol xəritəsi verilib. Mühazirənin sonunda Vüsal Qasımlı sualları cavablandırıb və müvafiq müzakirələr keçirilib.

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Türk iqtisadi icmalı"nın 2023-cü ilin ilk sayına əsasən, 2021-ci il üzrə türk dövlətlərində ÜDM 1 milyard 383 milyon dollar, ticarət dövriyyəsi isə 8 milyard 56 milyon dollar təşkil edib. Cari ilin ilk rübündə Özbəkistan iqtisadiyyatı 5,5 faiz, Qazaxıstan iqtisadiyyatı 4,9 faiz, Qırğızıstan iqtisadiyyatı 4,6 faiz, Türkiyə iqtisadiyyatı 4 faiz, Azərbaycan iqtisadiyyatı isə 0,4 faiz böyüyüb.

2022-ci ildə dövlət büdcəsinin gəlirlərinin artımı baxımından isə ən yaxşı göstərici 100,6 faizlə Türkiyədə qeydə alınıb. Qardaş ölkənin dövlət büdcəsinin gəlirləri 147 milyard 122 milyard 2 milyon ABŞ dolları olub. Türkiyə bu ilin yanvar-mart aylarında da dövlət büdcəsinin gəlirlərinin artımında fərqlənib, 75,1 faiz təşkil edən 53 milyard 812 milyon dollar məbləğində gəlirlə liderlik mövqetini saxlayıb.

Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 4 milyard 758 milyon dollar) və Azərbaycan (ticarət balansı 4 milyard 209 milyon dollar) malik olub. Bu dövr ərzində TDT-nin üzv ölkələrinin hər birində əsas kapitala yönələn vəsaitlərdə də artım müşahidə edilib.

"Türk iqtisadi icmalı"nın sözügedən sayında ilk dəfə olaraq türk dünyasından keçən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri də göstərilib. Həmin dəhlizlərin arteriyalar üzrə şaxələndirilməsi isə Avrasiya regionunda nəqliyyat daşımalarında türk dünyasının mövcud potensialını göstərib.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Bu, respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətlərində özünü aydın nəzərə çarpdırır. Məsələn, 2022-ci ildə Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dollaradək yüksəlməsi, Türkmənistanla dövriyyədə 5,1 dəfə artım qeydə alınması bunun bariz nümunəsidir.

***XQ***

# Azərbaycanın heç kimin torpağında gözü yoxdur!



(əvvəli 1-ci səhifədə)

Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin son sayıqlamaları da bu qəbildəndir. Səfir oktyabrın Ermənistanın Vayoçdzor vilayətinə (ermənilər "marz" deyir – S.H.) səfər edib. O, səfər çərçivəsində vilayətin qubernatoru Ararat Qriqoryanla görüş keçirib. Yazılan məlumatda qeyd olunur ki, tərəflər Fransanın Od-de-Frans regionu ilə əməkdaşlıq edən Ermənistanın bu bölgəsində humanitar və təhlükəsizlik vəziyyətini müzakirə ediblər.

Səfərlə bağlı özünün "X" platformasındakı hesabında paylaşım edən səfir yazıb: "Cermukda olarkən Avropa İttifaqının Ermənistandakı missiyası (EUMA) ilə birlikdə Ermənistanın suveren ərazilərinin Azərbaycan tərəfindən davam edən işğalının şahidi oldum".

Ermənistan saytları səfirin bu paylaşımını böyük həvəslə "Fransa səfiri Olivye Dekotini Ermənistan Respublikasının suveren ərazilərinin Azərbaycan tərəfindən işğalı (?) ilə tanış olub" sərlövhəsi ilə yayıblar. O iddia edib ki, guya, Azərbaycan Silahlı Qüvvələri 2022-ci ilin sentyabr ayında Cermuk kurort şəhəri istiqamətində onlarca kvadratkilometr ərazini öz nəzarəti altına alıb.

***

Fransız səfirin yazdığı bu fikirlər, şübhəsiz, ölkəsinin rəsmi mövqeyindən irəli gəlir. Hazırda Azərbaycana qarşı "bütün cəbhəboyu hücuma keçən" fransız rəsmilər də bu düşüncədədirlər. Halbuki, həm parisdəkilər, həm də İrəvandakı səfir Azərbaycanın heç vaxt, heç kimin torpağını işğal etmədiyini çox yaxşı bilir. Əksinə, Azərbaycan özü XX əsrdə bir neçə dəfə ərazi itkisinə məruz qalıb. 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı, 1920-ci ildə Azərbaycan SSR Zəngəzuru Ermənistana güzəştə gedib. Onu da qeyd edək ki, tarixi Azərbaycan şəhəri 1936-cı ilədək öz adını qoruyub saxlayıb. Yalnız 1936-cı ildə sovet hakimiyyətinin imzaladığı dekretlə şəhər Yerevan adlandırılıb. Həmin ildə Ermənistandakı əksər Azərbaycan toponimlərinin – şəhərlərin, çayların, bütöv rayonların, yaşayış məntəqələrinin adları, digər coğrafi adlar sürətlə erməniləşdirilib. Elə səfirin getdiyi və "Vayoçdzor" kimi təqdim olunan vilayət də tarixi Azərbaycan ərazisi olan Dərələyəz mahalıdır. 1960-cı illərin əvvəllərində isə ölkəmizin Ermənistanla sərhədyanı rayonlarından on minlərlə hektar torpaq sahəsi örüş üçün üzdəniraq qonşumuza verilib. Buna baxmayaraq, Azərbaycan nə sovet dövründə, nə də müstəqillik illərində Ermənistana verilmiş ərazilərin geri qaytarılması məsələsini qaldırmayıb. Əksinə, 1980-ci illərin sonlarında özü təcavüzlə üzləşib, ərazi itkisinə məruz qalıb. 1987-ci ilin axırlarından başlayan etnik separatizm, "miatsum" nəticəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ona bitişik 7 rayonumuz işğal altına düşdü. Torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı və yalnız 2020-ci ildə işğala son qoyuldu. Bu il suverenliyimiz tam bərqərar olundu.

Azərbaycanın Ermənistana ərazi iddiasının olmadığı ölkəmizin rəsmi şəxsləri tərəfindən dəfələrlə bəyan edilib. Rəsmi Bakı 29,8 min kvadratkilometrdə Ermənistanın ərazi bütövlüyünü tanıdığını bildirib. Ermənistandan fərqli olaraq, Azərbaycan heç vaxt başqa ölkələrin ərazisinə iddia etməyib. Oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış edən Prezident İlham Əliyev bu barədə deyib: "Amma əsas odur ki, biz istədiyimizi edək. Çünki biz haqq yolundayıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq".

Bundan əlavə, Azərbaycan Zəngəzur dəhlizinin açılmasını, Naxçıvan Muxtar Respublikası ilə ölkənin cənub-qərb rayonları arasında quru yol əlaqəsinə malik olmağımızı istəsə də, bunu Ermənistanın suverenliyi çərçivəsində etməyin tərəfdarıdır. Azərbaycan Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistandan eksterritoriallıq (toxunulmazlıq hüququ, beynəlxalq hüququda hökumətin öz hakimiyyətini sərhədlərindən kənarda həyata keçirmək imkanı-S.H.) tələb etmir. Bu məsələ də ölkəmizin rəsmi şəxslərinin çıxışlarında dəfələrlə bildirilib. Ermənistanın isə hərbi təcavüz və ərazi iddiaları səbəbindən regional layihələrdən təcrid olunması hər kəsə yaxşı məlumdur. Görünən odur ki, Ermənistan Azərbaycanın öz ərazilərini azad etməsindən sonra da bu mənhus niyyətinə son qoymaq istəmir.

Əlbəttə, bütün bunları Fransa səfiri də bilməmiş deyil. Yəqin ki, səfir Ermənistanın üçtərəfli bəyanatla vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək, eyni zamanda, təhlükəsizliyini təmin etmək öhdəliyinin mövcud olduğunu da yaxşı bilir. Ermənistanın, həmçinin Azərbaycanın cənub-qərb rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisini təmin etməklə bağlı öhdəliyi mövcuddur. Ancaq müsyö Dekotini bunu bilsə də özünü o yerə qoymur. Bundan əlavə, onun paylaşımı diplomatik protokol qaydalarına da ziddir. Çünki səfir heç bir əsas olmadan Azərbaycanı işğalçılıqda ittiham edir. Bu isə açıq-aşkar səlahiyyət həddini aşmaqdır.

Onu da qeyd edək ki, Fransa rəsmilərinin belə yanaşmaları üzündən Azərbaycan – Fransa münasibətləri hazırda ən kritik dövrünü yaşayır. Azərbaycan da Fransanın "həmlələrini" cavabsız buraxmır. Oktyabrın 20-də paytaxtımızda Bakı təşəbbüs qrupunun təşkilatçılığı ilə "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" adlı beynəlxalq konfransın keçirilməsi də bunun göstəricisidir. Konfransda 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı Dənizaşırı ərazilərinin, həmçinin Korsikanın təmsilçiləri də iştirak edəcəklər.

Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı Bakı təşəbbüs qrupu iyulun 6-da Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin nazirlər toplantısı çərçivəsində yaradılıb. Qrup Qoşulmama Hərəkatının müstəmləkəçilik və yeni-müstəmləkəçilik təcrübələrinə qarşı mübarizədə prinsipial mövqeyinin əsaslılığını və aktuallığını təsdiqləyib, Fransanın xaricdəki müstəmləkələrində ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq barədə razılığa gəliblər.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**Azər HƏSRƏT,**
**siyasi şərhçi**

– Fransanın İrəvandakı səfirinin Azərbaycanın bu ölkənin torpağını işğal etməsinə "şahidliyi" bir daha göstərir ki, rəsmi Paris dövlətimizə qarşı qeyri-ciddi yanaşma sərgiləməkdə israrlıdır. Diplomat bilməlidir ki, iki ölkə arasındakı sərhədin demarkasiya və delimitasiyası gerçəkləşdirilməyibsə, hansısa dövləti digərinin torpağını işğal etməkdə günahlandırmasına haqqı yoxdur. Hələ Ermənistanın özü dəqiq bilmir ki, onun sərhədi harada başlayır, harada bitir. Belə olan halda Fransa səfiri necə müəyyən edib ki, Azərbaycan Ordusu Ermənistan ərazisi daxilindədir?

Burada bir məqamı da ayrıca qeyd etmək lazımdır. Təkcə bu yanaşmanın özü bir daha göstərir ki, sözün həqiqi mənasında, yazıq ermənilər məhz Fransa kimi dövlətlər, onların siyasətçiləri, diplomatları məqsədli şəkildə pis vəziyyətə qoyurlar. Bunun arxasındakı əsas səbəb də Fransanın türk düşmənçiliyini dövlət siyasətinə çevirməsidir. Yəni bu səfirə tapşırıq verilib ki, nə olursa-olsun, Azərbaycana qarşı bir açıqlama verməlisən. Onun da savadı və təcrübəsi yetərincə olmadığı, elementar məntiqi bilmədiyi üçün durub bu cür absurd "şahidlik" edir. Açığını deyim ki, Fransa kimi tarixi ənənələri olan bir dövlətin belə acınacaqlı duruma düşməsi heç də ürəkaçan deyil.

Göründüyü kimi, özünün naşı liderliyi ilə Emmanuel Makron dünya güclərindən olan bu ölkəni necə gülünc vəziyyətə salıb. Nə deyirik ki? Seçim özlərinindir. Biz də Azərbaycan olaraq, doğru bildiyimiz yolla irəliləməkdə davam edəcəyik. Fransanın hansısa alayarımçıq diplomatının gülüş doğuran "şahidliyi" bizi yolumuzdan çəkindirə bilməyəcək. Ziyan yenə də ermənilərə olacaq. Ona görə də ermənilər kiminlə oturub-durmaq barədə ciddi düşünməlidirlər.

# Şeyxülislam Misirdə erməni vandalizmini ifşa edib

**Misir Ərəb Respublikasında işgüzar səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Dünya Fətva Evləri Qurumları Baş katibliyinin Misir Prezidenti Əbdülfəttah Əl-Sisinin himayəsi altında keçirilən "Fətva və üçüncü minilliyin çağırışları" mövzusunda konfransda iştirak edib.**



50-yə yaxın ölkənin dövlət, din və ictimaiyyət xadimlərinin, Qahirədəki müsəlman ölkələrinin səfirlərinin iştirak etdiyi məclisdə Misirin Baş müftisi Şövqi Əllam Dünya Fətva Evləri Qurumları Baş katibliyinin şeyxülislam Allahşükür Paşazadənin təşkilatın ali fərqlənmə – "İmam Qarafi" mükafatına layiq görüldüyünü elan edib.

Şeyxülislam Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsindən sonra işğaldan azad edilmiş bölgələrimizdə aparılan bərpa və yenidənqurma işləri barədə iştirakçılara məlumat verib. O, azad olunmuş ərazilərimizdə minalardan təmizləmə işlərinin hələ də davam etdirildiyini, mənsubiyyətindən asılı olmayaraq dağıdılmış və vandalizmə məruz qalmış məscid və digər dini məbədlərin bərpa olunduğunu və yenilərinin inşa edildiyini bildirib.

Konfrans çərçivəsində MƏR Parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şeyx Əli Cuma ilə görüşdə də Allahşükür Paşazadə erməni təbliğatının, xüsusilə də erməni kilsəsinin anti-Azərbaycan kampaniyaları apardığı barədə məlumat verib.

Şeyxülislam Misir Qipti kilsəsi rəhbərinin müavini yepiskop İrmia ilə görüşündə isə 44 günlük Vətən müharibəsindən və son antiterror tədbirlərindən sonra erməni diasporasının və erməni kilsəsi tərəfindən anti-Azərbaycan təbliğatının artdığının müşahidə olunduğunu diqqətə çatdırıb. O, qeyd edib ki, Qarabağ bölgəsində mülki əhaliyə qarşı heç bir təzyiq göstərilməyib və onlar bu ərazini könüllü olaraq tərk ediblər.

**XQ**

# Şuşalılar gələn il doğma şəhərə qayıdacaqlar




**Gələn ilin birinci rübündə Şuşa əhalisi doğma şəhərə qayıtmağa başlayacaq. Bunu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov jurnalistlərə açıqlamasında deyib.**

A.Kərimov bildirib ki, ilkin olaraq birdəfəlik 400-dək ailənin köçürülməsi nəzərdə tutulub. Onun sözlərinə görə, yeni yaşayış kompleksinin tikintisi bu ilin sonuna yekunlaşacaq.

**XQ**

# "Azərpoçt"un Xankəndi filialı

**Xankəndidə "Azərpoçt" MMC-nin filialı fəaliyyətə başlayıb. Bu barədə XQ-yə "Azərpoçt" MMC-dən bildirilib.**

Yeni xidmət obyekti şəhərin respublikanın digər əraziləri, eləcə də xarici ölkələrlə poçt rabitəsini bərpa edəcək, müştərilərin zəruri tələbatını ödəyəcək.

**XQ**




# Ukraynanın minatəmizləyən maşınları Azərbaycan üçün də gərəklidir

**Ukraynada hazırlanmış yeni minatəmizləyən maşınlar hərbi sursatla çirklənmiş torpaqları təmizləməyə üstün imkan yaradır. Bu barədə "Efarm pro" layihəsinin rəhbəri Aleksandr Prixodçenko mediaya açıqlamasında bildirib:**



– Biz mina təmizlənməsi üçün maşın işləyib hazırlamışıq. Daha səmərəli və maliyyə baxımından sərfəli olan bu maşından həm Azərbaycanda, həm də Ukraynada ərazilərin minalardan təmizlənməsi prosesində istifadə etmək olar. Biz Ukrayna ərazilərində uğurla istifadə olunan avtopilotlar və naviqasiyalı sistemlərlə iş sahəsində artıq əhəmiyyətli təcrübəyə malikik. Bu, minalanmış ərazilərdə insanlar üçün riski aradan qaldıran qurğunu işləyib hazırlamağa bizi sövq etdi. Əsas məsələ mina partlayışı zərbələrinə tab gətirməyə qadir olan maşını işləyib hazırlamaq idi. Azərbaycan ilə birgə təcrübəmiz ən mühüm və əsas amala - insan həyatını qorumağa malik olan texnologiyanın hazırlanması ola bilər.

Bildirilir ki, Ukrayna daAzərbaycan kimi işğaldan azad olunan ərazilərdə mina problemi ilə qarşı-qarşıyadır. Bu isə əhali üçün dəhşətli fəsadlar törədir. Minalardan təmizləmə çox vaxt aparan və zəhmət tələb edən prosesdir. Buna görə də torpaqlarımızın silah-sursatdan tez və effektli şəkildə təmizlənməsinə kömək edə biləcək texnoloji layihələr həll yolu ola bilər. Ukrayna taxıl yetişdirilməsi üzrə dünyanın aparıcı ölkələrindən biridir. Bu səbəbdən kənd təsərrüfatı təyinatlı torpaqların silah-sursatdan təmizləmək iqtidarında olan texnologiyalara böyük diqqət ayrılır.

**XQ**

# Azərbaycan Qadınlarının VI Qurultayı

**Oktyabrın 19-da Bakıda Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib.**



Məclisdən əvvəl qurultay iştirakçıları Fəxri xiyabanı ziyarət edərək, xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub və gül dəstələri düzüblər.

Həmçinin Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

Qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda, müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 illiyi münasibətilə təşkil edilib. Məclisdə paytaxt və bölgələrdən 600-ə yaxın qadın iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

naziri Mahinur Özdəmir Göktaş, Milli Məclis sədrinin müavini Adil Əliyev, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Vladanka Andreyeva, insan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva, Tacikistanın əmək, miqrasiya və məşğulluq nazirinin müavini Nodiri Şaxnoza Anvar, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışlarında qadınların hüquqlarının təmin olunması, onların ictimai hyəatda iştirakçılığının artırılması ilə bağlı fikirlərini



bölüşüblər.

Çıxışlardan sonra BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin sədri Ana Pelaez Nervaezin qurultay iştirakçılarına videotəbriki nümayiş olunub.

Azərbaycan Qadınlarının VI Qurultayı işini "Ulu Öndər Heydər Əliyevin iştirakının təmin olunması Ulu öndərin siyasətinin ayrılmaz tərkib hissələrindən olub. Qadınların irəli çəkilməsi, təhsili ilə bağlı məsələlərdə, qadın sahibkarlığının inkişafı istiqamətində çox önəmli siyasət həyata keçirib. Müstəqilliyimizin ilk illərində – ölkəmiz üçün çox ağır bir vaxtda, 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadınlar konfransında Azərbaycan qadınları çox yüksək səviyyədə təmsil olundular, xalqımızın haqq səsini dünyaya çatdırdılar.

**"Vəfa Collection" şirkətinin təsisçisi, ilk Azərbaycan brendi – "Made in Azerbaijan" markası ilə ev tekstili fabrikinin qurucusu Vəfa Muradzadə isə dedi:**

– Cəmiyyətdə qadınların inkişafı vacib amildir. Bütün sahələrdə, o cümlədən sahibkarlıq istiqamətində qadın sahibkarların potensialından istifadə Azərbaycanın dayanıqlı və inklüziv inkişafı üçün mühüm rol oynayır. Təkcə sosial baxımdan deyil, iqtisadi cəhətdən də qadın sahibkarlara dəstək vacibdir. Belə ki, bu, gender bərabərliyinə nail olmaq və əmək bazarının yaxşılaşdırılması üçün xüsusilə vacibdir. Bu, həm də qadınların iqtisadi müstəqilliyini artırılması üçün yaxşı şansdır.

**Sahibkar qadın Sürəyya İsmayılova Azərbaycan qadınlarının bütün sahələrdə əldə etdikləri nailiyyətlərin onların məsuliyyətini daha da artırdığını söylədi:**

–Ölkəmizdə bərqərar olan mühit qadınlarımızın potensialının daha da artırılması üçün əlverişli zəmin yaradıb. Bu, gələcək nəsillər üçün davamlı inkişafa yol açıb. O son 20 ildə qadınların sahibkarlıq sahəsində rolu da artıb. Döv-




Sonra "Heydər Əliyev və dövlət qadın siyasəti" mövzusunda videoçarx nümayiş etdirilib.

Qurultayı açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dövlət qadın siyasəti ilə bağlı məruzə ilə çıxış edib.

B.Muradova Ulu öndər Heydər Əliyevin Azərbaycanda qadın siyasətinə böyük önəm verdiyini və diqqət yetirdiyini diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə mütəşəkkil qadın hərəkatının əsasını qoyan Ümummilli liderin diqqət və qayğısı sahəsində Azərbaycanda savadlı, ictimai həyatda fəal iştirak edən qadınlar yetişib.

Dövlət komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev də qadınların dövlət idarəçiliyində və cəmiyyətdə rolunu yüksək qiymətləndirir, onların rolunun artırılması istiqamətində müvafiq dövlət proqramları qəbul olunur.

Sonra çıxış edən Baş nazirinin müavini Əli Əhmədov vurğulayıb ki, tarixi qələbələrimizin qazanılmasını şərtləndirən amillərdən biri də sağlam ailə və bu ailələrdə yetişən vətənpərvər gənclər olub. Biz bu gənclərimizlə fəxr edirik.

Türkiyənin ailə və sosial xidmətlər əsas missiyası: Böyük Qayıdış", "Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər", "Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi", "Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar" mövzularında panel müzakirələrlə davam etdirib.

Qurultayın yekununda müzakirə və təkliflər əsasında qətnamə qəbul olunub.

Sonda Azərbaycan Qadınlarının VI Qurultayının iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva "XQ"yə müsahibəsində bildirdi:**

–Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider qadınların idarəetmə, sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib hesab edirdi. Ölkəmizdə qadın hüquqlarının qorunması, onlara yüksək imtiyazların verilməsi, qadınlarımızın dövlət siyasətinin həyata keçirilməsində fəal lətin diqqət və qayğısı sayəsində qadınlarımız kiçik və orta sahibkarlıqla daha cəsarətlə, daha qətiyyətlə məşğul olurlar. Azərbaycan qadınları ölkə iqtisadiyyatına öz töhfələrini vermək üçün ciddi səy göstərirlər. Qadın fəallığı harada varsa, orada ictimai tərəqqi də var.

**"Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirdi:**

– Azərbaycan qadınları həyatın bütün sahələrində fəallıqları ilə fərqlənir, quruculuq işlərinə öz töhfələrini vermək üçün ciddi səy göstərirlər. Son illər dövlət idarəçiliyinin yüksək pillələrində qadınların təmsilçiliyi daha da artır, təhsil, səhiyyə və mədəniyyət sahələrində isə qadınlar əhəmiyyətli dərəcədə üstünlük təşkil edirlər. Ölkəmizdə qadınların hüquqlarının yüksək səviyyədə qorunması, onların seçib-seçilmək hüququna malik olmaları, yüksək postlarda, qeyri-dövlət strukturlarında ölkəmizin maraqlarının müdafiəsi istiqamətində fəaliyyətləri ilə seçilmələri mühüm faktordur.

***Hazırladı:***
***Leyla QURBANOVA***
***XQ***

# Müdafiə Nazirliyinin xəbərləri



**Azərbaycan Ordusunda 2023-cü ilin hazırlıq planına uyğun olaraq silah, döyüş və xüsusi texnikanın istismarının payız-qış mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər keçirilir.**



Bütün hərbi hissələr silah və texnikanın payız-qış mövsümündə fasiləsiz və dayanıqlı istismarını təmin etmək üçün mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir.

Keçirilən kompleks tədbirlər çərçivəsində texnikanın yanacaq-sürtkü materialları mövsümü tələblərə uyğun olaraq dəyişdirilir, o cümlədən elektrik və hidravlik sistemlərinin istismara yararlılığı yoxlanılır.

* * *

Türkiyədə Azərbaycan hərbçilərinin də qatıldığı "Erciyes-2023" təlimləri başa çatıb.

Təlimlərdə Azərbaycanla yanaşı, Gürcüstan, Pakistan, Liviya, İspaniya, İtaliya və Özbəkistan da müşahidəçi kimi təmsil olunub.

Təlimlərdə 652 nəfərlik şəxsi heyət, 67 nəqliyyat vasitəsi, 5 təyyarə və 354 müxtəlif növ silahlardan istifadə olunub.

Qeyd edək ki, Azərbaycan Müdafiə Nazirliyi də sözügedən təlimlərlə bağlı məlumat yayıb.

***XQ***

## Xəzər İnşaat Həftəsi

**Bakıda Xəzər İnşaat Həftəsi ilə payız sərgi mövsümünə start verilib. Həftə çərçivəsində 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh", 28-ci Azərbaycan Beynəlxalq İnşaat – "BakuBuild" və 15-ci Yubiley Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu – "Aquatherm Baku" sərgiləri işə başlayıb. Bu tədbirlərlə eyni tarixdə 11-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat – "Road&Traffic" sərgisi də təşkil edilib.**

# Dünya tikinti sənayesinin Bakı təqdimatları

*Qarabağda quruculuq diqqət mərkəzindədir*




Açılış mərasimində Prezident İlham Əliyevin sərgi iştirakçılarına müraciəti oxunub.

İnşaat Həftəsində iştirakçılar arasında Azərbaycan, Almaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Cənubi Koreya, Çexiya, Çin, Finlandiya, Fransa, İran, İspaniya, İtaliya, Hindistan, Qazaxıstan, Litva, Macarıstan, Niderland, Özbəkistan, Rusiya, Sloveniya və Türkiyədən ümumilikdə 370-dən çox şirkət yer alır. Sərgilərdə Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Macarıstan, Özbəkistan və Rusiya milli və regional stendlərlə təmsil olunur.

Qarabağın bərpasına həsr olunmuş yeganə və ilk ixtisaslaşmış sərgi olan "Rebuild Karabakh" sərgisinin məqsədi Qarabağda baş verən müsbət dəyişikliklərə diqqət çəkmək, eləcə də Qarabağın bərpası proseslərinə təşkilatları və müəssisələri cəlb etməkdir.

"Rebuild Karabakh" sərgisi burada iştirakçı olan beynəlxalq şirkətləri Qarabağda investisiya layihələrində iştirak etməyə dəvət edir. Sərginin əsas hədəfi də Qarabağ üçün investisiyaların həcmini artırmaq, xarici şirkətlərin Qarabağın inkişafında, infrastrukturunun bərpasında, mülki obyektlərin tikintisində iştirak etməsini təmin etməkdir. Sərgidə təqdim olunan innovativ məhsullar, xidmətlər və həllərin müxtəlifliyi Qarabağda birgə layihələrin həyata keçirilməsi üçün müxtəlif sənaye sahələrinin nümayəndələri arasında yeni müqavilələr bağlamaq imkanı yaradır.

"Rebuild Karabakh" sərgisi ekologiya, energetika, informasiya texnologiyaları, inşaat, inşaat materialları, kənd təsərrüfatı, mədənçilik, nəqliyyat, təhlükəsizlik, yol tikintisi və infrastrukturu və bir sıra digər sektorlar üzrə təşkil edilib.

Çoxillik tarixə malik olan "BakuBuild" və "Aquatherm Baku" sərgiləri isə tikinti sənayesində innovativ məhsul və xidmətlərin ölkə bazarına çıxışı üçün şərait yaradır, qısa müddətdə hədəf auditoriyası ilə üzbəüz görüşlər keçirmək, yerində biznes qurmaq imkanı təqdim edir.

Bu il yubileyini qeyd edən "Aquatherm Baku" sərgisi isə 15 ildir ki, istilik, havalandırma, hovuzlar, sauna, spa, kondisioner (HVAC), avadanlıqlar sahəsində bölgənin aparıcı peşəkar sərgisi mövqeyini qoruyur. Sərgidə hava təmizləyiciləri, kondisionerlər, radiatorlar, ventilyasiya sistemləri, istilik sistemləri, istilik izolyasiya materialları, saunalar, hovuzlar, qızdırıcılar, kompressorlar, soyuducular, çirkab (tullantı) su texnologiyaları, ətraf mühitin mühafizəsi texnologiyaları, filtrlər, fitinqlər, boru kəmərləri, nasoslar, soyuducular və s. kimi sektorlar təqdim olunur.

"Road&Traffic" sərgisi Azərbaycanda yol infrastrukturu sahəsində ixtisaslaşmış tədbirdir. Sərgi yol infrastrukturu, ictimai nəqliyyat, yol təhlükəsizliyi və informasiya texnologiyaları sektorlarının peşəkarlarının görüş yeridir. Bu sərgi yol, körpü və tunellərin layihələndirilməsi və inşası əsnasında bu sahənin mütəxəssislərinə müasir həll variantlarını təqdim etmək, habelə bazarın tələbatlarını və intellektual nəqliyyat sistemi (İNS) sektoruna aid olan məhsulların satış potensialını tədqiq etmək, Azərbaycanın ictimai nəqliyyat operatorları ilə görüşmək, yol-tikinti sektorunda çalışan podratçıların mütəxəssisləri ilə təcrübə mübadiləsi üçün nadir imkandır.



Xəzər İnşaat Həftəsinin işgüzar proqramı çərçivəsində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair tədbirlər planı üzrə panel müzakirələri, ikitərəfli biznes görüşləri (B2B) və digər tədbirlərin keçirilməsi planlaşdırılır. Oktyabrın 19-da "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərə əhalinin geri qayıdışı, daha yaxşı quruculuğu", "Müasir şəhərsalmada enerji effektivliyinin əhəmiyyəti – Şuşa modeli", "Qarabağda problemlərin innovativ həlləri", "Qarabağ İqtisadi Rayonunun dirçəlişi, bərpası və yenidən qurulması" və "İşğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası" mövzularında panel sessiyalar keçirilib.

Xəzər İnşaat Həftəsi çərçivəsində keçiriləcək sərgilər oktyabrın 21-dək davam edəcək.

# Nyu-Yorkda Azərbaycan Bayrağı

**ABŞ-ın Nyu-York şəhərinin maliyyə mərkəzi hesab olunan "Wall Street" küçəsində yerləşən məşhur "Bowling Green" parkında 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Dövlət Bayrağının qaldırılma mərasimi keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, Azərbaycan Nyu-York Assosiasiyası üzvlərinin təşkilatçılığı ilə baş tutan mərasimdə şəhər meriyasının təmsilçiləri, azərbaycanlı diplomatlar, soydaşlarımız və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycan Nyu-York Assosiasiyasının prezidenti Ercan Yerdələnli və vitse-prezidenti Zəminə Mirhadıyeva mərasim iştirakçılarını bayram münasibətilə təbrik ediblər. Builki bayramın fərqli olduğuna, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin Qarabağ üzərində tam bərpa edilməsi fonunda keçirildiyinə diqqəti cəlb ediblər.

Sonra Azərbaycan Dövlət Himninin sədaları altında üçrəngli şanlı bayrağımız Nyu-York səmasına ucaldılıb və ABŞ bayrağı ilə yanaşı dalğalandırılıb.

Qeyd edək ki, Azərbaycan Dövlət Bayrağı şəhərin ilk rəsmi parkı və nəhəng



bayraq meydanı kimi tanınan "Bowling Green"də 10 gün müddətində dalğalandırılacaq. Oktyabrın 27-dən isə Azərbaycan Bayrağını Türkiyə Bayrağı əvəz edəcək. Türkiyə Respublikasının yaranmasının 100 illiyi münasibətilə bu yerdə qardaş ölkənin bayrağı ucaldılacaq.

***XQ***

Şəhidlərimiz

# Qızılgülə dönən Rüfət

**1988-ci ilə bir il qalırdı. Şad-xürrəm, bir qədər də kövrək əhvalla orta məktəbi qurtarmağımızı – “Son zəng”imizi qeyd edirdik. Günorta çağı sinif yoldaşlarımızdan birinin həyətinə yığışmışdıq. Deyir-gülür, rəqs edir, sevimli müəllimlərimizdən xeyir-dua alırdıq.**

Onda heç ağlımıza da gəlməzdi ki, bir il sonra Qarabağa düşmən əli uzanacaq, hansısa yoldaşımız Vətən yolunda şəhid olacaq. O saatlarda böyük arzularla yaşayan Rüfətin taleyinə, sən demə, ermənilərin ərazi iddiaları ilə başladıqları tutdu. Rüfət isə ordu sıralarına yollandı. O, əsgərliyini başa vurar-vurmaz başımızın üstünü qara buludlar aldı. Rüfət də bütün həmyaşıdları kimi Qarabağ uğrunda döyüşlərə yollandı.

Onun bağışladığı qızılgül kolu artıb






müharibədə qurban getmək düşübmüş. “Son zəng” günümüzdə hamıdan çox təsirlənən də məhz Rüfət olmuşdu. Yadıma gəlir ki, həmin gün “Əlvida” mahnısını dinlədikcə Rüfət necə kövrəlmişdi, yanaqlarından yaş da süzülmüşdü. Bir də onu xatırlayıram ki, yığışdığımız bağçada açan qızıl gülləri görüb dedim ki, başqa qızılgüllərdən həyətimizdə əkmişəm. Ən çox xoşladığım “qırxyarpaq” qızılgüldən isə bizim həyətdə yoxdur. Həmin günün səhəri qonşuluqda yaşayan Rüfəti qapımızın ağzında gördüm. Qollu-budaqlı “qırxyarpaq” qızılgüllə gəlmişdi. Öz bağçalarından çıxarıb gətirmişdi. “Bunu həyətinizdə ək, heç olmasa, bu gül açanda məni yada salarsan” – deyib getmişdi.

Sonra hər kəs seçdiyi ali məktəbə üz tutdu... həyətimizi başına götürmüşdü. Kəndə yay tətilinə gələndə açıb-solmuş olurdu. 1993-cü ilin mayında çətin günlərini yaşayan kəndə getdim. Davanın qızğın vaxtı idi. Buna görə də atam axşama qalmağımı istəməyib dedi: “Qayıt şəhərə, qızım. Mən hərbçiyəm, burdan çıxmağa ixtiyarım yoxdur, səninsə burda qalmağını istəmirəm”.

O gün kənddə ölüm sükutu hökm sürürdü. Doğrudan da, çox təhlükəli vəziyyət vardı. Ev-eşiyini atıb gedə bilməyən, yanar oda düşən hər kəs bizim həyətə toplaşmışdı... Gecə səhərə qədər oturub mərmi, atışma səsini dinləyən, balasının fəryadı qulaqlarında cingildəyən qadınlar artıq başlarının üstünü kəsdirmiş erməni daşnakları kəndə girəcəkləri halda nə edəcəklərini düşünürdülər. Hamının odlu nöqtələrdə əzizi vardı, son vaxtlar kəndə gələn təcili yardım maşınları isə yaralı yox, şəhid gətirirdi. Fəryadlar ərşə qalxırdı...

Tərs kimi, həmin gün də elə oldu, qulaqlarımı tutub evə qaçdım. Anamın bayırda dediyi sözlər qulaqlarıma qurğuşun kimi süzüldü: “Ramiləyə deməyin kimdir, qoyun, bilməsin, çıxıb getsin Bakıya”. Ani sükutdan sonra qonşu həyətdən qopan qışqırtı mənə hər şeyi əyan elədi. Rüfətgilin evi idi.

Sanki məni ildırım vurdu. Neçə illərdən sonra bu gün ilk dəfə onun ərməğan etdiyi qızılgüllərin açdığını görmüşdüm. Cəld onların hamısını yığıb böyük bir əklil düzəltdim, Rüfətgilə getdim. Çoxdan üzlərini görmədiyim, təhsillərini buraxıb kəndin müdafiəsinə qoşulmuş sinif yoldaşlarım sıra ilə düzülmüşdülər. Müəllimlərimiz də orada idilər. Şəhid əsgərlərlə bərabər Rüfətin də cəsədi 3 gün döyüş ərazisində qalıbmış. Kəndi geri alan əsgərlərimizin ilk işi cənazələri sahiblərinə çatdırmaq olub. Anasının ağısı altında əklili onun cənazəsinin qarşısına qoydum. Sonra mən qatara minib Bakıya yön aldım. Rüfəti isə gecə ikən şam işığında cəmi bir neçə ay sonra yağmalanacaq yurdun torpağına tapşırdılar...

İndi Rüfətin, Arazın, Adilin, Mübarizin və yüzlərlə şəhid həmyaşıdımın ruhu şaddır. Kəndimiz, yurdumuz işğaldan azad edilib. Vaxtilə oxuduğumuz məktəbin binasında şanlı ordumuzun hərbi hissəsi yerləşir.

Tezliklə o bina yenə məktəb olacaq. Rüfətin ruhu bir daha o zaman sevinəcək.

***R.QURBANLI***
***XQ***

# Suqovuşanda düşmənin sol cinahı çökdürüldü

**...Suqovuşan qəsəbəsinin azad edilməsi Vətən müharibəsində strateji əhəmiyyət daşıyırdı. Çünki bu qəsəbənin coğrafi mövqeyi əlverişli idi və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük verirdi. Bu qələbə çox əlamətdar hadisə idi, müharibənin ilk günlərində strateji qəsəbəni işğaldan azad etmək böyük uğur idi.**



Döyüşlər isə davam edirdi. O tarixi günlərə nəzər salanda görürük ki, düşmənin Suqovuşanda ağır məğlubiyyətə uğradılmasında, tutduğu mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilməsində polkovnik-leytenant Əfqan Abdurahmanov və tabeliyində olan bölmələr ölüm-dirim savaşına çıxıb. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları o günlərdə bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edildi. Düşmən isə Suqovu-şanın itirilməsi ilə heç cür barışa bilmirdi, bu önəmi yaşayış məntəqəsini geri almaq üçün bir neçə dəfə əks-hücuma keçdi. Lakin ordumuz həmin hücumlarn qarşısını aldı və ermənilər çoxsaylı canlı qüvvə və texnika itirərək geri çəkilməli oldular.



Oktyabrın 4-ü, 5-i və 6-sı Suqovuşan yaşayış məntəqəsi yaxınlığında yerləşən yüksəklikdə əlverişli mövqe tutan Əfqan Abdurahmanov buradan iki hərbi hissənin bölmələrinin “530”, “951” yüksəklikləri və Gödəkburun dağı istiqamətində olan ərazilərin azad edilməsi əməliyyatını istiqamətləndirdi. Rabitədə Bayram İbişovun işarəsi “Bayram-01”, Əfqanınkı isə “Əfqan-36” idi. Döyüşlərin gedişində yalnız iki səs gəlirdi. Yuxarı qərargahla danışıqları onlar aparırdılar.

Oktyabrın 4-də işğalçı qüvvələr dörd tank və bir ədəd iriçaplı silahdaşıyan zirehli texnikanın (BMP) köməyi ilə Ağdərə istiqamətindən Suqovuşan yaşayış məntəqəsinə doğru əks-hücum əməliyyatı həyata keçirmək istədilər. Müdafiədə duran döyüş növbətçilərimiz bu barədə dərhal polkovnik-leytenant Əfqan Abdurahmanovla Bayram İbişova məlumat verdilər. Suqovuşanın yuxarısından döyüşə hazır vəziyyətdə olan “SPQ-9” silahı ilə düşmənin desant daşıyan zirehli texnikası məhv edildi. Sonrakı atəşdə mərmi düşmənin olduğu yerə düşdü. Onlar kifayət qədər itki verdilər, yaralıları daha çox idi. Digər zirehli texnikaların taleyi də əvvəlkindən fərqlənmədi.

Suqovuşanın yaxınlığında “Teleqüllə” yüksəkliyində mayor Mirdamət Bağıyevin qrupu yerləşirdi. Həmin ərazidən ətraf zona müşahidə altında idi. İki tankı qrup “SPAYK” ilə məhv etdi və düşmən əks-həmləni kəsməyə məcbur oldu. Oktyabrın 5-də Qaçay Abdullayev yaralandı. O, Vətən müharibəsinin ilk günündən döyüş əməliyyatlarında iştirak etmiş, Suqovuşan uğrunda döyüşlərdə yanına düşən minomyot mərmisinin partlaması nəticəsində sağ ayağını dizdən aşağı itirmişdi. Sol qulağı da ciddi zədə almışdı.

Kapitan Vüqar Əliyev o günləri xatırlayaraq deyir:

– Qaçay adlı cəsur bir gizirimiz vardı, döyüş vaxtı yanına minaatan mərmisi düşdü, yaralandı. Gördüm ki, məni çağırır. Tez yanına qaçdım. Dedi: “Hər şey yaxşıdır, heç nəyə görə narahat olma”. Halbuki onun ayağını mərmi üzüb qoparmışdı. Tez ona morfi vurdum, ilkin tibbi yardım göstərib təxliyə etdik. “Məndən ötrü narahat olma, uşaqlar sizə əmanətdir”, – dedi. Yəni o cür yaralı vəziyyətdə belə heç kim ruhdan düşmürdü.

Oktyabrın 6-da isə bölük komandiri Elçin Ağayev şəhid oldu. O, Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib, bir sıra uğurlu əməliyyatlarda şücaəti, ilə əsgərlərinə nümunə olub, onları qətiyyətlə düşmən üzərinə aparıb. Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirib. Oktyabrın 7-də artıq Azərbaycan bölmələri şərqdəki bütün yüksəklikləri götürmüşdü.

Ümumiyyətlə, Talış–Suqovuşan əməliyyatında düşmənin 6-cı dağatıcı 193-cü desant həmlə taboru, 022 xüsusi təyinatlı qüvvələrin iki taboru, 77-ci əlahiddə tank taboru məhv edildi, 7-ci, 5-ci dağatıcı alaylarına, 38-ci əlahiddə mexanikləşdirilmiş briqadaya ağır zərbələr endirildi. Düşmənin ümumilikdə 96 tankı məhv edildi, 13 tank və 161 avtomobil texnikası, 24 ədəd “D-30” topu ordumuz tərəfindən qənimət kimi götürüldü. Suqovuşanda silah-sursat anbarı da ordumuza qaldı.

Bununla da yenilməz deyilən xətlərin keçilməsi, erməni ordusunun məhv edilməsi, silah-sursatının ələ keçirilməsi, əsgərlərinin döyüşü tərk edib qaçması, ordusunun dağılması, tarazlığının pozulması baş verdi. Başlıcası isə düşmənin döyüş əzmi və qərarlılığı məhvə düçar oldu. Bütün bunlar nəticə etibarı ilə erməni xalqının, dövlətinin psixoloji olaraq çökməsinə, sonun başlanğıcına səbəb oldu.

***P.ƏFƏNDİ***
***XQ***

Azərbaycan kinosu – 125

# Müharibə mövzusu böyük ekranda

**(əvvəli 1-ci səhifədə)**

Ermənistan–Azərbaycan münaqişəsinə gəlincə isə, bu mövzuda hələlik Birinci Qarabağ müharibəsi mövzusunda müəyyən filmlər çəkilib: “Dolu”, “Fəryad”, “Yarımçıq xatirələr”, “Ümid”, “Girov”, “Yalan”, uşaqlar üçün “Ağ atlı oğlan” və s. Debüt filmi sayılan “Qara bağ” da bu sıraya aid edilməlidir. Məsələ bundadır ki, istər bədii, istərsə də sənədli janrda lentə alınan bütün filmlər ümumən tarix üçün, eyni zamanda gələcək nəsillər üçün bir növ xronika kimi vacibdir. 44 günlük “Zəfər yürüşü”, şəhidlərimizin qəhrəmanlığı, dünyada analoqu olmayan uğurlu döyüş əməliyyatları, psixoloji məqamlar hələ özlərinin ekran təcəssümünü gözləyir. Bir sözlə, Qarabağ müharibəsi özünün hər üzü ilə dünyaya çatdırılmalıdır.

Onu da xatırlayırıq ki, bir neçə il əvvəl kinoda Qarabağ mövzusu ölkəmizin sərhədlərini də adlayıb. Söhbət türk rejissoru Gökalp Yamenin “Qarabağ – Turan” adlı 18 dəqiqəlik qısa filmindən gedir. Mübariz İbrahimovun qəhrəmanlığının da geniş yer aldığı həmin ekran işinin Şimali Kiprin Yaxın Doğu Universitetində təqdimat mərasimi də keçirilib.



Son dövr kinomuzda Qarabağ mövzusunda uğurlu filmlərin rejissoru kimi tanınan Əməkdar incəsənət xadimi Elxan Cəfərovun bu barədə fikirləri maraqlıdır: “Bilirsiniz ki, mən vaxtında bu mövzuda üç film işləmişəm. “Dolu” (2012), “Yarımçıq xatirələr” (2015) və “Qarabağdır Azərbaycan” (sənədli-bədii film 2009). Əgər bundan əvvəl bizim filmlərdə Qarabağa necə qayıtmağımız, Qarabağsız Azərbaycan, “Biz Qarabağı heç vaxt unutmayacağıq” kimi mövzular əsas idisə, bundan sonrakı dövrdə kinonun Qarabağla bağlı paradiqması artıq dəyişib. Biz Qarabağ savaşında qalib gəldik, torpağımızı qaytardıq və bundan sonra Qarabağımızı necə dirçəldəcəyik, orada necə möhkəmlənəcəyik kimi məsələlər də önə keçməlidir”.

Avqustun sonunda Mədəniyyət Nazirliyinin Azərbaycan Ədəbiyyat Fondu ilə “Ədəbiyyatın kinoya transferi” mövzusunda keçirdiyi dinləmələrdə də bu məsələ ətraflı müzakirı olunub. Fondun baş direktoru, tanınmış yazıçı Varis Yolçuyevin dediyinə görə, həmin tədbirdə məqsəd keyfiyyətli filmlərin ərsəyə gətirilməsi üçün yazıçıların kino sənayesinə daha yaxından cəlb edilməsi olub. Mədəniyyət nazirinin müşaviri, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu, Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı, AYB-nin katibləri İlqar Fəhmi və Elçin Hüseynbəyli, birliyin dramaturgiya seksiyasının müdiri Firuz Mustafa, Azərbaycan Kino Agentliyinin şöbə müdiri Rəşad Qasımov, rejissor Adil Azay və başqaları ədəbiyyatla kinonun vəhdətindən, yaxşı filmlərin çəkilməsi üçün yaxşı dramaturji materialın olması zərurətindən bəhs ediblər. Mədəniyyət naziri Adil Kərimlinin kinodakı durğunluğu aradan qaldırmaq üçün atdığı zəruri tədbirlərə diqqət çəkilib. Müharibə mövzusunda filmlərin ən yaxşı müəlliflər tərəfindən çəkilməsi zərurəti vurğulanıb və bildirilib ki, bu mövzuda film müsabiqəsi keçirmək nəzərdə tutulur.

Ölkənin kino cameəsinin birləşməsi, “Debüt studiyası”nın bərpası, mediasının maliyyələşdirilməsinə başlanılması, prodüser mərkəzlərinin çoxalması və təkmilləşməsi üçün atılan addımlar nikbinlik yaradır. Mədəniyyət Nazirliyinin seleksiya yolu ilə tələbələr arasından, gənc istedadlar arasından yeni rejissorlar, ssenaristlər, operatorlar, aktyor və aktrisaların seçilməsində maraqlı olması da inam yaradan amildir.

Nazirlik, həmçinin, dünyaçaplı studiyaların gəlib Azərbaycanda filmlər çəkməsini gerçəkləşdirmək, hətta onları maliyyələşdirmək əzmindədir. Azərbaycan ərazisində film çəkən bütün xarici şirkətlərdən yalnız bir şey tələb olunacaq: 60–70 faiz yerli kadrlardan – azərbaycanlı mütəxəssislərdən istifadə etsinlər ki, kinoda milli kolorit hiss olunsun.

Bu günlərdə müharibə mövzusunda iki filmin təqdimatının keçirilməsi fərəhli hadisədir. Biri qəhrəmanlıq xronikasına aid olan “Oğul”, digəri isə müharibə itkinləri haqqında çəkilmiş “Coğrafiya müəllimi” adlı qısametrajli bədii-sənədli filmdir. Bu ekran işlərinin ingilis dilində titrlərlə müşayiət olunması filmləri xarici auditoriyaya çıxarmaq məramına xidmət edir.

Şübhə etmirik ki, şanlı qələbədən sonra Vətən müharibəsi haqqında daha güclü ssenarilər yazılacaq, filmlər çəkiləcək. Ali Baş Komandanın bu 44 gündə xalqa müraciətləri, əsgərlərimizin qəhrəmanlıqları və sair əsl salnamədir, tarixdir, bütöv seriallar üçün münbit materialdır. Bu mövzular ədəbiyyatda və kinoda özünün layiqli əksini tapacaq.

Amma kinematoqrafçılar unutmamalıdırlar ki, Qarabağ müharibəsi haqqında maraqlı və dərin məzmunlu filmlərin çəkilməsi hər zaman aktual məsələ olaraq qalacaq. Dünya arenasına çıxmağın başqa yolu yoxdur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Füzulinin barıt qoxulu günləri

*(Qazinin gündəliyindən)*



**Müharibə dedikdə yadıma ilk olaraq Füzuli–Cəbrayıl cəbhəsi düşür. Füzuli dedikdə isə Kürdlər, Dördçinar və s. istiqamətlər...**

Bu kəndlərin qarşısında düşmən önündə müəyyən yüksəklik–təpələrin bəzisində bizim batalyon yerləşib. Qarşılıqlı olaraq düşmənin artileriya hücumları başlayır. Həm orda qalmağa imkan verməməliyik, həm də üstümüzə toplardan və minaatanlardan mərmi yağdırılır.

Dərinliyi dizdən olan, ot basmış səngərə yerləşirəm heyətimizlə. Qazılma istiqaməti və sairdən aydın hiss olunur ki, bu səngər 1-ci Qarabağ savaşından qalmadır. Allah bilir, o zaman orada kimlərimiz şəhid olub. İndi onların övladlarıdır o səngərdə olanlar. Bu qədər mərmi yağmuru olsa da, hələ itkimiz yoxdur. Bəlkə Birinci Qarabağ savaşında orda şəhid olanların ruhudur bizi qoruyan?!

Bir neçə dəqiqə sonra sağ istiqamətimizdə yerləşən düşmən bölükdən artilleriya atışlarından sonra bir zabitimiz və iki əsgərimiz yaralanır. Səhv etmirəmsə, baş leytenant Əmrahov sağ əlinin barmaqlarını itirir. Bir əsgər boğazından, digəri isə bədənindən yaralanır. Digər bölmələrin də köməkliyi ilə yaralılar oradan aparılır.

Bunun ardınca bizim ordunun şiddətli əks artileriya hücumu, atışları başlayır. Bir neçə partlayışsa raket atıldığının bariz nümunəsi idi. Həm təhlükə var, həm də bu raket partlayışlarına olan marağımı öldürə bilmirəm. Bu nədir, bu nə partlayışlardır belə... Torpağın bağrı yarılır sanki.

Bu atışlardan sonra düşmən artileriyası səngiyir, sonra isə tam dayanır. Gecəyə yaxın bizə məlumat verilir: Bir azdan "qonaqlarımız" olacaq, heç bir halda qarşı tərəfə, hərəkətliliyə atəş açmayın. Bildiyiniz qüvvələr, yəni bizim ordu – XTQ və digər bölmələr gecəylə hücuma keçəcək.

...Qısa müddət ərzində yuxarıda adlarını sadaladığım kəndlər, həmin məntəqələrin qarşısı və digər istiqamətlər düşməndən tam təmizlənir. Amma sonrakı günlər ərzində digər döyüşlərdə batalyonumuz 4 şəhid verir, 20-yə yaxın hərbçimiz yaralanır.

Bu şəkil isə həmin kəndlər və qarşısı təmizləndikdən sonra çəkilib. Orda nəfəs kəsən gərgin günlərdən sonra 2-3 gün dincəlmək olardı...

P.S. Şəhər gününüz mübarək, əziz füzulilər!

***Emin PİRİ,***
***şair-publisist***

Beynəlxalq həyat

# Yaxın Şərq: Qəzza atəş altında

(əvvəli 1-ci səhifədə)



Beləcə, Yaxın Şərqdə hazırda dünyanı çox narahat edən bu münaqişəyə cəlb olunan tərəflərin heç biri güzəştə getmək istəmir. Nəticədə, hər iki tərəfdən ölən və yaralananların sayı, eləcə də dağıntılar artır. Qlobal mediadakı süjetləri izləyəndə, insana elə gəlir ki, sanki planetdə rəhm və mərhəmət hissi qeybə çəkilib.

Bu gün gündəmin əsas mövzusu Qəzzadakı böyük xəstəxananın partladılması hadisəsidir. Belə ki, "Əl Əhli" xəstəxanasında məşum partlayışın "müəllif"inin kim olduğunu da hələlik ayırd etmək mümkün olmur. Ən son məlumatlara görə, burada 471 nəfər həlak olub. İsrail rəsmiləri bunu şişirdilmiş rəqəm hesab edirlər.

Bu arada Türkiyədə Qəzzadakı xəstəxanaya hücuma görə üçgünlük matəm elan olunması ilə əlaqədar bayraqlar yarıya endirilib. "Anadolu" agentliyi məlumat yayıb ki, həmin faciə ilə bağlı teatr və mədəniyyət mərkəzlərinin proqramı təxirə salınıb.

Rəsmi Təl-Əviv bildirib ki, son bir sutka ərzində bu ölkənin silahlı qüvvələri Qəzzada HƏMAS-ın infrastrukturuna ağır zərbələr endiriblər. Fakt budur ki, Qəzza hələ də mühasirədədir və burada əhaliyə su, qaz və elektrik təchizatı dayandırılıb. Qəzza sakinləri humanitar böhranla üzləşib.

Misir hökumətinin İsrail iqtidarı ilə əldə olunan razılığına əsasən, ölkədəki "Rəfah" keçid məntəqəsi bu gündən fəaliyyətini qismən bərpa edəcək. Buradan sutka ərzində 20-dək yardım maşınının Qəzzaya yola düşməsinə icazə veriləcək.

Qeyd edilir ki, Misir Prezidenti Abdül Fəttah Əl-Sisi "Rəfah" sərhəd-buraxılış məntəqəsinin Qəzza zolağına humanitar yük daşıyan 20 avtomobil üçün açılmasına razılaşıb. Qeyd edək ki, bu vaxtadək Misir və İsrail rəsmiləri "Rəfah"ın açılmasına qarşı çıxırdılar.

Bu gün BMT-nin Baş katibi Antonio Quterreşin Qahirəyə gələcəyi, buradan dərhal Misirlə Qəzza arasında yerləşən "Rəfah" məntəqəsinə gedəcəyi barədə xəbərlər yayılıb. Misirin "Əl Hədah" telekanalının məlumatına görə, BMT Baş katibi bölgədəki ağır durumla tanış olacaq və atəşkəsin əldə olunması üçün təklifləri səsləndirəcək.

İki gün əvvəl ABŞ Prezidenti Co Baydenin regiona qısa səfərindən sonra bu dəfə Böyük Britaniyanın Baş naziri Rişi Sunak Təl-Əvivə səfər edib. Hind əsilli britaniyalı siyasətçi burada israilli həmkarı ilə görüşüb mövcud vəziyyəti müzakirə edib. R.Sunak görüşdən əvvəl və sonra jurnalistlərə bildirib ki, rəsmi London hər cür terrora qarşıdır. Onun sözlərinə görə, HƏMAS-ın 7 oktyabr hücumu olduqca dəhşətli hadisədir.

Yeri gəlmişkən, dünən İsrail Dövlətinin Prezidenti İsxak Hersoq da Britaniya hökumətinin rəhbərini qəbul edib və ali qonaqla görüşdən sonra media mənsublarına açıqlamasında belə deyibdir: "İŞİD-in ölkə sərhədlərimizə daxil olduğunu görürük". O, terrorçuları "şər imperializmi" adlandırıb və dəstəyə görə britaniyalı siyasətçiyə təşəkkür edib.

Göründüyü kimi, dünya birliyi HƏMAS-İsrail qarşıdurması zamanı baş verən ağır zorakılıqlardan narahatdır. Beynəlxalq ictimaiyyət münaqişənin genişlənərək Üçüncü Dünya müharibəsinə çevrilməsini istəmir. Bir çox dövlətlər tərəfləri təcili surətdə atəşkəs elan etməyə səsləyirlər.

Amma Yaxın Şərqdə gərginlik faktiki olaraq azalmır. Müharibə hər gün, hər saat yeni qurbanlar bahasına davam edir. Bu fəlakətin qarşısını alan isə yoxdur. ABŞ Prezidenti C.Baydenin regiona səfəri də sülhə olan ümidləri doğrultmadı.

Fələstinin Səhiyyə Nazirliyinin yaydığı məlumata görə, Qəzzada artıq 13 gündür davam edən münaqşə zamanı ölənlərin sayı 3 min beş yüzü keçib. 12 mindən çox insan yaralanıb. Qəzzada HƏMAS-ın milli təhlükəsizlik qüvvələrinin komandiri Meysenin öldürüldüyü barədə xəbərlər yayılıb.

İsrailin də itkiləri artır. HƏMAS-ın 7 oktyabr hücumundan sonra İsrailin 1400-dən çox vətəndaşının həlak olduğu bildirilir. HƏMAS-ın hələ də iki yüzə yaxın israillini girov saxladığı qeyd edilir.

Hazırda Yaxın Şərq od içindədir. Bu münaqişə ocağından sıçrayan qığılcımlar bütün regionu öz ağuşuna ala bilər. Bu, arzuolunmaz ssenarinin qarşısı təcili alınmalıdır!

***M.HACIXANLI***
***XQ***

# Benzema Fransa islamofoblarını qəzəbləndirib



**Fransa cəmiyyətinin irqi ayrı-seçkilikdən, xüsusilə də islamofobiyadan əziyyət çəkdiyi barədə yazmışdıq. Amma bu zərərli təmayülün "üfüqlərinin" belə genişlənəcəyini, millətini və dindaşlarını sevən məşhur futbolçuya qarşı iyrənc hücumlara qədər böyüyəcəyini təsəvvür edə bilməzdik.**

İsrail–Fələstin münaqişəsində ikincini dəstəkləyənlər arasında siyasilərlə yanaşı, populyar və nüfuzlu sənət adamları, dünyanın dörd tərəfində məşhur ulduzlar da var. Fələstinlilər üçün dua edənlərin arasında "Real" klubunun sabiq forvardı, "Qızıl top"un sahibi, Əlcəzair əsilli futbolçu Karim Benzema da var. Hazırda "Əl-İttihad"ın formasını geyinən 35 yaşlı fransız futbolçu oktyabrın 15-də sosial şəbəkədə belə bir paylaşım edib: "Biz Qəzza sakinləri üçün dua edirik. Onlar növbəti dəfə nə qadınlara, nə də uşaqlara aman verməyən ədalətsiz bombardmanın qurbanları oldular".

Bu fikirlərinə görə indi əlcəzair əsilli fransız Benzemanı Fransa vətəndaşlığından və halal "Qızıl top"undan məhrum etməyə çağırışlar səslənməkdədir. Onun ünvanına təhqir və söyüşlərin sayı-hesabı itib. Ölkənin daxili işlər naziri Cerald Darmenen hətta onu "Müsəlman qardaşları" təşkilatı ilə əlaqədə ittiham edib. Marselin vitse-meri, ifrat ermənipərəstliyi ilə tanınan Valeri Buaye isə Karim Benzemanın "Qızıl top"unu əlindən almağa, vətəndaşlıqdan məhrum etməyə, hətta ona qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Yəni, dünyaca məşhur futbolçunun müsəlman təəssübkeşliyi nümayiş etdirərək fələstinlilərə dəstək verməsi çinovnik müsyö və madamların xoşuna gəlməyib, onları cin atına mindirib.

Sosial şəbəkədə dahi futbolçunun ünvanına yağdırılan itiham və təhqirlərdən yazılması mümkün olan bir neçəsinə diqqət edin:

**Fransanın daxili işlər naziri Cerald Darmenen:**

"O, siyasi bəyanat verib. Onun yazdığının mənası budur ki, mən Respublikanın və Fransanın dəyərlərinə tüpürürəm".

**Avroparlamentin fransalı deputatı Nadin Morano:** "Benzema bununla HƏMAS-ın təbliğat agentinə çevrildi. Çünki onlar İsrailin yalnız fiziki məhvini deyil, həm də beynəlxalq ictimai rəydə məhvini təbliğ edirlər".

**Fransa Senatının sağçı-mühafizəkar üzvü Valeri Buaye:** "Başlanğıc üçün o, "Qızıl top"dan məhrum edilməli, sonra vətəndaşlığı əlindən alınmalıdır. Biz ikili vətəndaşlığa malik dünyada tanınan fransızın ölkəmizi bu cür biabır etməsi və hətta satması ilə barışa bilmərik".

**Futbol üzrə İsrail yığmasının eks-qapıçısı, 45 yaşlı Dudu Avat** sosial şəbəkədə ivrit, fransız, ərəb, ingilis və ispan dillərində belə yazıb:

"Sən əsl köpək oğlusan".

Hər şeydən göründüyü kimi, irqçi, "islamofob irtica eşolonu" siyasi meydançada forvard Benzemaya qarşı bütün "cinahlardan" hücuma keçib. Həm də fərdin söz və vicdan azadlığı kimi təməl haqqını nəzərə almadan, şəxsiyyətini alçaldaraq. Bu kampaniyanın insan hüquqlarını qoruyan məhkəmənin yerləşdiyi, amma Makronun Fransasında baş verməsi təəccüblü deyil.

***İ.HƏSƏNQALA***
***XQ***

# Pakistan icazəsiz mühacirlərlə vidalaşacaq

**Pakistanın hakimiyyət orqanları oktyabrın sonunadək bütün qanunsuz mühacirləri ölkədən çıxaracaq. Bunu Pakistanın Bəlucistan əyalətinin müvəqqəti hökumətinin informasiya naziri Yan Açakzay deyib.**



"Pakistan müvafiq sənədləri olmadan ölkədə yaşayan bütün xarici vətəndaşların deportasiya edilməsi barədə yekun qərar qəbul edib. Biz oktyabrın 31-dək onların ölkələrinə qayıtmasını təmin etməyə çalışacağıq", - deyə nazir bildirib. Onun sözlərinə görə, BMT-nin qaçqınların işi üzrə Ali komissarlığında qeydiyyatdan keçən şəxslər sonrakı qərara qədər Pakistanda qalacaqlar.

Qeyd edək ki, hazırda Pakistanda 1,3 milyon qanunsuz mühacir mövcuddur və onların əksəriyyətini əfqanıstanlı qaçqınlar təşkil edir. Sənədsiz miqrantlar arasında, həmçinin İran, İraq, Suriya və digər ölkələrin vətəndaşları var.

BMT-nin məlumatına görə, Pakistana sığınan əfqanıstanlı qaçqınların sayı bu ilin iyun ayında 3,5 milyon nəfərə yüksəlib və əgər problemin həlli üçün İslamabada beynəlxalq yardım göstərilməsə, onların vəziyyəti böhran həddinə çatacaq.

***XQ***

İdman

**Ağırlıqqaldıma idman növü Los-Ancelesdə keçiriləcək XXXIV Olimpiya Oyunlarının proqramında qalacaq. Bu qərar Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Hindistanın Mumbay şəhərində keçirilən 141-ci sessiyasında Olimpiya yarışlarının proqramının təsdiq edildiyi iclasda qəbul edilib.**

# Ağırlıqqaldırma "Olimp"də qaldı



Əslində, bir idman növünün Olimpiadanın proqramından kənarda qalması üçün çox ciddi əsaslar olmalı idi. Təəssüf ki, uzun illər – təxminən O 40 il ərzində "Dopinqsiz bu idman növündə uğur qazanmaq mümkün deyil" fikri çoxlarının düşüncəsinə hakim kəsildiyi üçün bu idman növündə ağlasığmaz dərəcədə dopinqdən istifadə etməklə uğurlar qazanılırdı. Antidopinq tədbirləri nəticəsində qazaxıstanlı ikiqat Olimpiya çempionu İlya İlyinin və digər titullu idmançıların nəticələrinin ləğvi dünya idman ictimaiyyətində şok effekti yaratdı.

Bununla da, Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (BAF) fəaliyyətinin araşdırılması, konstitusiyasının dəyişdirilməsi, orada bu və digər məsələlərin nəzərə alınması qaçılmaz olub. Beynəlxalq Antidopinq Agentliyi ilə birgə fəaliyyət göstərən Beynəlxalq Test Agentliyi yaradılıb. BAF büdcəsinin çox hissəsini dopinqlə mübarizəyə xərcləməyə başlayıb.

Təxminən bir neçə il əvvəl BOK-un BAF-a müraciəti əsasında ehtiyat analiz nümunələrinin yenidən yoxlanmasına başlanıb ki, bu da böyük dopinq qalmaqallarına səbəb olub. Təkrar analizlər nəticəsində çox ciddi problemlər meydana çıxıb. Azərbaycan da daxil olmaqla, 9 ölkənin milli federasiyaları cəzalandırılıb. Azərbaycan Ağırlıqqaldırma Federasiyası 2017-ci ilin oktyabrından başlayaraq 1 illik cəzaya məruz qalsa da, görülən geniş tədbirlər nəticəsində artıq iyun ayında bəraət alıb.

**Bəs hazırda Azərbaycanda bu sahədə vəziyyət necədir? Azərbaycan Ağırlıqqaldırma Federasiyasının Texniki Komitəsinin sədri, mütəxəssis Kənan Mustafayev qurumun antidopinqlə mübarizə sahəsində ciddi səylər göstərdiyini bildirdi:** "Dopinqin aradan qaldırılmasının əsas yolu beyinləri, düşüncələri təmizləməkdir. Əsas da məşqçilər başa düşməlidirlər ki, biz dopinqsiz də uğur qazana bilərik. Bu gün qələbə qazanıb, sonra idman karyeramız ləkələnərsə, buna getmək olmaz. Bu məsələ ilə bağlı çoxsaylı seminarlar, idmançılar, mütəxəssislər, məşqçilərin iştirakı ilə təbliğat xarakterli tədbirlər keçiririk. Federasiyanın gördüyü iş nəticəsini verir. Hazırda beynəlxalq səviyyədə dopinqlə bağlı problemimiz yoxdur".

Dopinq idmançının daha böyük uğur qazanması üçün qadağan olunmuş maddələrlə kömək etməsi məqsədi daşıyır. Məsələn, ağırçəkili idmançı 1 məşq ərzində təxminən 10-12 ton çəki qaldırır. Bu çəkinin altında insanın bədəninin yorulması, hətta deformasiyaya uğraması normal haldır. İdmançı axşam məşqinə qədər bərpa olunmalıdır. Dərmanların məhz böyük bir hissəsi bərpa prosesinə kömək etsə də,



insan orqanizminə böyük ziyan vurur, sonsuzluq, ciddi zədələr, bədənin bir hissəsinin deformasiyaya uğraması, digər ağır xəstəliklərə səbəb olur.

K.Mustafayev artıq antidopinq mədəniyyəti yarandığını, yeni nəslin təmiz idman uğrunda mübarizəyə qoşulduğunu dedi: "Qadağan olunmamış çoxlu vitaminlər var ki, onların effekti qadağan olunmuş vitaminlərdən az deyil. Bu xeyirli maddələr bədəndəki enerjini bərpa etməyə kömək edir. Təbii ki, bunlar birdən-birə effekt vermir. Sadəcə vitaminlər qəbul edib, doğru qidalanıb, doğru rejim quraraq istədiyimiz nailiyyəti əldə edə bilərik. Böyük uğura ədalətli mübarizə ilə nail ola bilərik".

Beynəlxalq Antidopinq Agentliyinin son statistikasına əsaslansaq, dünya idmanında ağırlıqqaldırma dopinqə görə cəzalandırmaya görə heç ilk 5-likdə deyil. Amma üstündən illər keçməsinə baxmayaraq ağırlıqqaldırmanın adı bu problemlə yanaşı çəkilir. Bunun üçün dünyanın müvafiq qurumları çalışırlar ki, ağırlıqqaldırma ən təmiz idman növlərindən biri kimi tanınsın.

***L.QURBANOVA***
***XQ***

# AFFA Klublar Komitəsinə yeni sədr seçilib



**AFFA Klublar Komitəsinin növbəti iclası keçirilib.**

Milli assosiasiyanın rəsmi saytı xəbər verir ki, iclasda qurumun baş katibi Sərxan Hacıyev, Peşəkar Futbol Liqasının prezidenti Elxan Səmədov və Premyer Liqada mübarizə aparan klubların nümayəndələri iştirak ediblər.

Klublar Komitəsinin Əsasnaməsinə uyğun olaraq, sədr vəzifəsinə seçki keçirilib. "Sabah" klubunun prezidenti Maqsud Adıgözəlov səs çoxluğu ilə komitənin sədri seçilib.

İclasda digər məsələlər də müzakirə olunub.

***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Azərbaycan Dövlət Pedaqoji Universiteti

*aşağıda qeyd olunan vakant vəzifəni tutmaq üçün müsabiqə elan edir:*

**Filologiya fakültəsinin dekanı.**

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə uyğun bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər rektorun adına yazılan ərizə ilə birlikdə ADPU-nun İnsan resursları şöbəsində qəbul edilir.

Əlaqə telefonu: (012) 498-08-16.
E-poçt: office@adpu.edu.az
www.adpu.edu.az
Ünvan: AZ-1000 Bakı şəhəri, Ü. Hacıbəyli küçəsi 68.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 229 (30345) 20 oktyabr 2023-cü il, cümə

## İdman xəbərləri

# Voleybol püşkatması

**Voleybol üzrə Azərbaycan çempionatlarında 2023/2024 mövsümünün püşkatma mərasiminin tarixi bəlli olub.**



Kişi və qadın voleybolçular arasında keçiriləcək yarışın püşkatması oktyabrın 23-də Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində keçiriləcək.

Tədbirdə AVF rəhbərliyi və əməkdaşları, klub rəhbərləri və rəsmi qonaqlar iştirak edəcəklər.

# Güləş məşqçiləri məsləhətləşirlər

**Azərbaycan Güləş Federasiyasının (AGF) təşkilatçılığı ilə məşqçilərin ümumrespublika seminarı çərçivəsində növbəti tədbir Göyçayda keçirilib.**



Seminarda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ASAPES) baş müəllimi Mehman Nəcəfov məşqlərin bölgüsündən danışıb, taktiki hazırlıq məsələlərinə aydınlıq gətirib. U-20 milli komandanın yunan-Roma güləşi üzrə böyük məşqçisi Nurəddin Rəcəbov diqqəti fiziki hazırlıq üzrə məşqlərə və texnika üzərində çalışmalara istiqamətləndirib. O deyib ki, güləşçilərin vitaminlər və müxtəlif dərmanlardan istifadəsinə nəzarət gücləndirilməlidir. Sərbəst güləş üzrə U-17 milli komandanın məşqçisi Vahid Məmmədov isə fəndlərin mükəmməl icrası üçün məşqlərdə elementləri dəfələrlə təkrarlamaq lazım olduğunu bildirib.

"London-2012"nin bürünc medalçısı, yunan-Roma güləşi üzrə U-20 milli komandanın məşqçisi Emin Əhmədov Seminarın praktiki hissəsində funksional hazırlığın önəmini vurğulayıb.n I-S kateqoriyalı hakim Sədi Quliyev isə xalçadan kənara çıxarkən edilən fəndlərin qiymətləndirilməsindən, parter, rəqibi bloklama qaydalarından bəhs edib.

Seminarda AGF-nin nümayəndələri məşqçilərin suallarını cavablandırıblar. Tədbirdə irad və təkliflər müzakirə olunub. Sonda tədbir iştirakçılarına sertifikatlar təqdim edilib.

# MMA döyüşçüləri "Qəbələ"ni seçdi

**MMA (qarışıq döyüş sənəti) döyüşçüləri Nəriman Abbasov, Vüqar Kərəmov və Tofiq Musayev "Qəbələ" İdman Klubu ilə yeni müqavilə imzalayıblar.**



"Baku MMA Academy"də keçirilən tədbirdə klubun ümumi işləri üzrə koordinatoru Səbuhi Qarayev, Azərbaycan MMA və Qrapplinq Federasiyasının qarışıq döyüş növləri üzrə yığma komandasının baş məşqçisi Ruslan Əfəndiyev və idman ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, noyabrın 4-də Milli Gimnastika Arenasında "Landmark 7" turniri təşkil ediləcək. Yarışda Vüqar Kərəmov yaponiyalı Çihiro Suzuki, Tofiq Musayev bu ölkənin digər idmançısı Toji Takeda, Nəriman Abbasov isə rusiyalı Ali Abdulxalikovla ilə güclərini sınayacaqlar.

***Leyla SABİRQIZI***
***XQ***

## Texnologiya yenilikləri

**Milyarder İlon Mask sahibi olduğu "X" sosial şəbəkəsini avropalı istifadəçilər üçün bloklamağı düşünür. Məlumata görə, avqust ayında qüvvəyə minmiş Rəqəmsal Xidmət Aktı (DSA) ilə bağlı tələblərdən getdikcə daha çox narazı olan biznesmen hazırda proqramın regionda əlçatmaz olmasının yollarını araşdırır.**

# İlon Mask "X"-i Avropada niyə bloklayır?

"Hazırda "X" adlanan "Twitter"i bir il əvvəl 44 milyard dollara əldə edən "Tesla"nın sahibi proqramın regionda əlçatan olmaması, yaxud Avropa İttifaqında istifadəçilərin ona daxil olmasını əngəlləmək imkanlarını müzakirə edib", - deyə mənbədən qeyd edilib.



Bildirilir ki, Mask ən azı iki dəfə daxili bazar üzrə Avropa komissarı Tyeri Breton ilə "X" sosial şəbəkəsinin DSA-ya uyğun olaraq görməli olduğu tədbirləri müzakirə etsə də, mövcud vəziyyət artıq onun səbrini tükədib.

Breton bundan əvvəl Avropa Komissiyasının "X"in yeni qanuna uyğunluğu ilə bağlı araşdırmaya başladığını bildirərək, sosial şəbəkələrdə İsrail-Fələstin münaqişəsi ilə bağlı dezinformasiyanın yayıla biləcəyini iddia etmişdi. Nəşr xatırladır ki, AK platformanın zərərli məlumatlarla mübarizə üçün gördüyü tədbirlər haqqında ətraflı məlumat tələb edib.

***XQ***

## Şövkət Ələkbərova–101

# Musiqimizin solmaz ağ çiçəyi

**Azərbaycan Respublikasının Xalq artisti müğənni Şövkət Ələkbərovanın bu gün ad günündür. O, 1922-ci il oktyabrın 20 -də Bakıda anadan olub, 1993-cü il fevralın 7-də vəfat edib. Məzarı Fəxri Xiyabandadır.**



**Uzun illərdir Şövkət xanımın nəğmələri bulaq tək axıb gəlir:**

*Açdı gül, gün oyandı,*
*hər tərəf al boyandı.*
*Dərdimdən neçə oğlan*
*yanar oda qalandı.*
*Mən güləm, gül üzüm,*
*yarım, heç zaman solmaz*
*Mənim kimi gözəli*
*belə sevməmək olmaz,*
*Yarım sevməmək olmaz!*

Böyük səhnə mədəniyyətinə malik olan müğənninin siması da, səsi də, davranışı da gözəl idi. Sanki ifa etdiyi "Hamıdan gözəl mənəm" nəğməsi onun özü üçün yazılmışdı. Doğrudan da, hamıdan gözəl idi gül üzlü, tuti dilli Şövkət xanım.

Onun ecazkar nəğmələri bu gün də dinləyicilərin könlünü oxşayır, ruhunu qidalandırır. Mahnılarla məşhurlaşan deyil, mahnıları məşhurlaşdıran müğənni idi Şövkət xanım!

Onun nəğmələri sərhəd tanımayıb, Vətəndən uzaqlarda da ürəklərə yol tapa bilib. Məşhur televiziya aparıcısı Rafiq Hüseynova verdiyi son müsahibədə deyib: "Hər kəsin həyatında narahatlıqlar ola bilər. Mənim həyatımda da olub. Amma bütün bunlara baxmayaraq, mən xoşbəxt insanam".

Səni sevməmək günah olar, Şövkət xanım! Sən sevildin, sevilirsən, seviləcəksən! Sən musiqimizin solmaz ağ çiçəyisən.

***Zülfiyyə ZİYA***
***XQ***

# Bakı sevgi obyektivində

**Bakıdakı Rus evində jurnalist İradə Əsədovanın "Bakı, sevgim mənim" adlı fotosərgisinin açılışı olub. Tədbir Bakıdakı Rus evində fəaliyyət göstərən Fotoklubun layihəsi çərçivəsində keçirilib.**



Sərgidə şəhərin müasir ruhunu əks etdirən 20 foto əsəri nümayiş olunub. Ekspozisiya parlaq və solğun rənglərin, donub qalmış formaların və insanların qaynar axınının çərçivələrinin, kəskin təsvirlərin və gündəlik fonun yaratdığı təzadlar üzərində qurulub.

İradə Əsədova fotoqraf, bloger və jurnalistdir, ölkənin mədəni həyatının işıqlandırılmasına verdiyi töhfələr bir sıra mükafatlarla qiymətləndirilib. Sərgi müəllifinin sözlərinə görə, Bakı onun üçün tükənməz ilham mənbəyidir. Şəhərə olan sevgi, hətta hər bir bakılıya yaxşı məlum olan yerlərdə belə fotoqrafa bənzərsiz kadrlar tapmağa kömək edir. Şəhərin hələ tam sezilməyən və incəlik bəxş edən ruhunu tutmaq bacarığı onun foto əsərlərini mülayimlik, sevgi və rahatlıqla dolğunlaşdırır.

Layihənin kuratoru qismində fotoqraf Vsevolod Tsurikov çıxış edib. Tədbirin musiqi qonağı Bakı Musiqi Akademiyasının məzunu Əminə Əhmədova, aparıcısı isə Lalə Həsənova olub.

***XQ***

## Sağlamlıq

# Çuğundur şirəsi infarkta qarşı

***Antioksidant təsirə malik olan qırmızı çuğundur dərini gözəlləşdirir, ürək xəstəliklərindən qoruyur, həzmi asanlaşdırır, bağırsaqların fəaliyyətinə müsbət təsir edir, qəbizliyi, mədə ağrısı və yanğısını aradan qaldırır.***



Yeni araşdırmalara görə, çuğundur suyu infarkt riskini minimuma endirir. Stend qoyulduqdan sonra altı ay ərzində çuğundur suyu içən anginalı xəstələrdə ikinci hücum ehtimalı bu içkini içməyənlərlə müqayisədə daha azdır. Britaniya Ürək–Damar Cəmiyyətinin alimləri üreyində işemiya olan 300 xəstənin 16 faizində stent qoyulduqdan 2 il sonra problemlərin təkrarlandığını bildiriblər. Amma hər gün çuğundur suyu içənlərdə bu rəqəm 7 faiz olub.

Çuğundur suyunu hamı içə bilməz. Bu suyu içdikdən sonra qan təzyiqi kritik dərəcədə düşə bilər. Mütəxəssislər mədə turşuluğu, bağırsaq xəstəliyi, urolitiyaz, böyrək çatışmazlığı olan şəxslərə bu içkini məsləhət görmür.

# Zəhərlənmədə nə qatıq, nə də ayran?

***Zəhərlənmədən şübhələnirsinizsə və ya zəhərli bir şey qəbul etmisinizsə, dərhal tədbir görmək vacibdir. İnfeksionistlər zəhərlənmənin dərmanı kimi ümumiyyətlə qatıq və ya ayran qəbulunu tövsiyə etmirlər.***



Problemi hiss edən kimi, ən vacib addım təcili tibbi yardım xidmətlərinə zəng etməkdir. Onlar necə mübarizə aparmağa dair məsləhət verə bilərlər. Çox yayılmış inancın əksinə olaraq, tibb işçisi göstəriş verməyibsə, qusmağa çalışmayın. Qəbul edilən maddədən asılı olaraq bəzi zəhərlənmə halları qusmaya səbəb ola bilər.

Yardımın gəlməsini gözləyərkən mümkün qədər sakit və hərəkətsiz qalın. İstirahət edin və zərərli maddələrin qəbulundan qaçın. Bir qayda olaraq, tibb mütəxəssisləri tərəfindən tövsiyə edilməyibsə, qatıq və ya ayran da daxil olmaqla, hər hansı maye qəbulundan çəkinin. Bu, təyin edilən istənilən müalicəyə mane ola bilər.

***Z.HÜSEYNLİ***
***XQ***

## HAVA




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən oktyabrın 20-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.

Gecə 11-14°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85, gündüzx 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 16-21° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-9° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Təbiət

**Avropa Kosmik Agentliyi Marsda uzunluğu 4 min kilometrdən çox olan "Marineris" vadisinin heyranedici mənzərəsini göstərən yeni videoçarx nümayiş etdirib.**




Videoda kəsişən kanyonlar kompleksi olan və 1200 kilometrə qədər uzanan "Gecənin Labirinti"nin ("Noctis Labyrinthus") heyrətamiz mənzərəsi də təqdim olunub.

Qeyd edək ki, bu kanyonların dərinliyi 6 kilometrə çatır.

***FİDAN***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Pirallahı rayonundan Vasif İmanov Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2714
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00